QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 062 (5782) **9 aprel** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Dayanıqlı sosial-iqtisadi tərəqqi demoqrafik inkişafın əsas göstəricisidir

*<u>İlham Əliyev:</u> "Əhali nə qədər çox olarsa, ölkəmiz də o qədər sürətlə inkişaf edər"*



Səh 3

2

Azərbaycan əhalisinin sayı 10 milyon nəfərə çatıb



4

Sabirabadda "Sosial sahədə islahatlar Azərbaycanda uğurla davam edir" mövzusunda müşavirə keçirilib



6

Ermənistanın ikiüzlü siyasəti Avropa Şurasında ifşa edildi!



# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 10 milyonuncu sakinin dünyaya gəlməsi münasibətilə Azərbaycan xalqını təbrik edirlər



***2019-cu il aprelin 6-da keçmiş Ağdərə rayonunun sakinləri, hazırda Ağdam rayonunun Baş Güneypəyə kəndində qeydiyyatda olan məcburi köçkün Ocaqova Nigar Çərkəz qızı ilə Həsənov Rauf Yunis oğlunun ailəsində Azərbaycanın 10 milyonuncu sakini dünyaya gəlib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu münasibətlə Azərbaycan xalqını və uşağın valideynlərini təbrik edirlər.

## Azərbaycan Prezidenti Dünya Bankının prezidentini təbrik edib

Azərbaycan Prezidenti İlham Əliyev Dünya Bankının prezidenti vəzifəsinə seçilməsi münasibətilə Devid Malpassa təbrik məktubu göndərib.

Məktubda deyilir: "Biz Azərbaycan ilə Dünya Bankı arasındakı əməkdaşlığa böyük əhəmiyyət veririk. Bu baxımdan ölkəmizdə həyata keçirilən iqtisadi islahatlarda, gerçəkləşdirdiyimiz irimiqyaslı infrastruktur layihələrinin maliyyələşdirilməsində Dünya Bankının yaxından iştirakını məmnunluqla qeyd etmək istərdim".

"Ümidvaram ki, Dünya Bankının fəaliyyət sahələri üzrə əməkdaşlığımızın daha da dərinləşdirilməsi istiqamətində səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik", - deyə dövlətimizin başçısı qeyd edib. Azərbaycan Prezidenti Dünya Bankının Prezidentinə möhkəm cansağlığı, qarşıdakı məsul işində uğurlar arzulayıb.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Elçin Bağırovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Elçin Tələt oğlu Bağırov "Şöhrət" ordeni ilə təltif edilsin.

# Azərbaycan əhalisinin sayı 10 milyon nəfərə çatıb

***Azərbaycan Respublikasının həyatında çox əlamətdar hadisə baş verib, əhalinin sayı 10 milyon nəfərə çatıb. 2019-cu il aprelin 6-da saat 03:30-da Bakı şəhərində Rauf Həsənovun və Nigar Ocaqovanın (Ağdərə rayonu sakinləri, hazırda Ağdam rayonunun Baş Güneypəyə kəndində qeydiyyatda olan məcburi köçkünlər) ailəsində ölkənin 10 milyonuncu sakini dünyaya gəlib. Doğulan qız uşağının çəkisi 3,6 kiloqram, boyu 52 santimetrdir.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu münasibətlə xalqımızı, yeni doğulmuş körpənin valideynlərini təbrik ediblər.

Sevindirici haldır ki, son illərdə Azərbaycan əhalisinin sayı sürətlə artır. Bu, Prezident İlham Əliyevin müdrik və uzaqgörən rəhbərliyi ilə Azərbaycanda iqtisadi inkişaf, sabitlik və əhalinin sosial rifahının yaxşılaşması istiqamətində görülən böyük işlərin nəticəsidir.

Aparılan sosial-iqtisadi siyasətin əsas uğurlarından biri kimi, dayanıqlı inkişaf şəraitində Azərbaycanda müsbət demoqrafik şərait bərqərar olub. Azərbaycan bir çox sahələrdə olduğu kimi, bu baxımdan da nümunəvi ölkədir. Nəzərə almaq lazımdır ki, dünyanın bir çox ölkələrində bu sahədə vəziyyət heç də ürəkaçan deyil, hətta əhalinin sayında azalma müşahidə olunur. Azərbaycanda isə əhalinin sayı dinamik templə artır.



Son vaxtlar, xüsusən bu ilin ilk aylarında Prezident İlham Əliyevin sosial sahədə inqilabi dəyişikliklər kimi qiymətləndirilən və hətta dünyanın inkişaf etmiş ölkələri üçün nümunə ola biləcək islahatları əhalinin rifah halının daha da yüksəldilməsinə böyük təkan verir. Sürətli inkişaf, sosial rifahın daha da yaxşılaşması istiqamətində həyata keçirilən ardıcıl tədbirlər Azərbaycanda əhalinin artım tempinin qorunub saxlanmasına əminlik yaradır.

## "Azərbaycanın on milyonuncu sakininin dünyaya gəlməsi Türkiyədə də böyük sevinclə qarşılanıb"



Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi xəbərini böyük sevinclə qarşıladıq. Körpənin məhz Qarabağ əsilli ailədə doğulması sevincə sevinc qatan hadisədir. Qədəmləri uğurlu olsun!

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Türkiyənin İzmir şəhərində fəaliyyət göstərən Azərbaycan Mədəniyyəti və Həmrəyliyi Dərnəyinin sədri Mülazim Pahsa söyləyib. Özü, ailəsi və dərnəyin bütün üzvləri adından körpənin valideynləri Rauf Həsənovu və Nigar Ocaqovanı, eləcə də bütün xalqımızı təbrik edən M.Pahsa əminliklə bildirib ki, Azərbaycan xalqı dövlət müstəqilliyini əzmlə qorumaq və inkişaf etdirmək üçün bütün imkanlara sahibdir.

Mülazim Pahsa deyib: "Ümummilli lider Heydər Əliyev tərəfindən möhkəm təməl üzərində qurulan Azərbaycan dövləti gündən-günə güclənir, əhalinin rifahı yüksəlir. Prezident İlham Əliyevlə xalqın vəhdətini böyük hörmət və sevinclə qarşılayırıq. Əhalinin təbii artımı müasir dövrdə ölkələr və xalqlar üçün böyük əhəmiyyət daşıyır. Azərbaycan və Türkiyədə əhalinin dinamik artımı insanlarımızda ailəcanlılığın, övlad sevgisinin, torpağa və Vətənə bağlılığın göstəricisidir".

## Özbəkistanın portalı Heydər Əliyev Mərkəzində açılan kukla sərgisinə dair videomaterial yayımlayıb




Özbəkistanın qalampir.uz portalı Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın layihəsi ilə Heydər Əliyev Mərkəzində açılan kukla sərgisinə dair videomaterial yayımlayıb.

AZƏRTAC xəbər verir ki, videomaterial bu yaxınlarda Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə bir qrup özbək jurnalistinin Azərbaycana mediaturu çərçivəsində hazırlanıb.

Portalda verilən mətndə və videomaterialda bildirilir ki, 2016-cı ildə Leyla Əliyevanın təşəbbüsü ilə açılan sərgidəki kuklalar turistlərdə xüsusi maraq yaradır. Bildirilir ki, sərgidə ABŞ, Almaniya, Avstraliya, Belorus, Fransa, Yaponiya, İtaliya, İsrail, Rusiya, İndoneziya, Ukrayna və digər ölkələrin tanınmış 60 kukla rəssamının 230-dan çox əl işi nümayiş etdirilir. Vurğulanır ki, nümayiş etdirilən kuklalar ağac, kağız, plastik materiallar və parçadan hazırlanıb. Materialda sərgidəki kuklaların 22 şəkili də yer alıb.

# Dayanıqlı sosial-iqtisadi tərəqqi demoqrafik inkişafın əsas göstəricisidir

## İlham Əliyev: "Əhali nə qədər çox olarsa, ölkəmiz də o qədər sürətlə inkişaf edər"

***Azərbaycanda son illər baş vermiş həm siyasi, həm də sosial-iqtisadi dəyişikliklər demoqrafik inkişafa ciddi təsirini göstərib. Demoqrafiya sahəsindəki siyasət dövlətimizin sosial siyasətinin mühüm və başlıca tərkib hissəsi olmaqla, onun əsasını təşkil edir. Demoqrafik proseslər cəmiyyətin həyatının bir çox tərəfləri ilə qarşılıqlı surətdə bağlı olduğundan, bu əlaqə sosial-iqtisadi hadisələrin demoqrafik proseslərə və öz növbəsində, demoqrafik proseslərin də sosial-iqtisadi hadisələrə təsirinin təzahürüdür.***

Müasir dövrümüzdə insan inkişafının demoqrafik aspektləri bir sıra amilləri özündə cəmləşdirir. Belə ki, ölkəmizdə ölüm səviyyəsinin azaldılması, əhalinin sağlamlığının və həyatının yaxşılaşdırılması hesabına uzunömürlülük, nikah və boşanma proseslərinin, bütünlükdə, cəmiyyətin və ayrılıqda hər bir ailənin mənafeyinə uyğun tərzdə nizamlanması, ictimai tərəqqinin həm yaxın, həm də uzaq gələcəyə perspektivləri nəzərə alınmaqla, miqrasiya proseslərinin tənzimlənməsi və digər amillər ölkəmizdə demoqrafiyanın inkişafına təsirsiz ötüşməyib. Təbii ki, demoqrafiya sahəsində dövlət siyasətinin əsas prinsipləri kimi ekoloji cəhətdən təhlükəsiz və sabit iqtisadi inkişafın təmin edilməsi də qeyd olunan amillər sırasındadır.

Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu islahatlar kursu ölkəmizdə dayanıqlı inkişafın təmin olunmasına imkan yaratmaqla bərabər və demoqrafiya sahəsində müsbət meyilləri də stimullaşdırıb. Bunun real təzahürü ölkə əhalisinin sabit artım tempinin davam etdirilməsində aydın şəkildə özünü göstərir. Əhalisinin sayı hər il sabit şəkildə artaraq 10 milyona çatan ölkəmizdə dayanıqlı sosial-iqtisadi tərəqqi, sosial siyasət davamlı xarakter almaqla demoqrafik inkişafa təkan verir. Belə ki, Ağdərə rayonunun sakinləri, hazırda Ağdam rayonunun Baş Güneypəyə kəndində qeydiyyatda olan məcburi köçkün Ocaqova Nigar Çərkəz qızı ilə Həsənov Rauf Yunis oğlunun ailəsində Azərbaycanın 10 milyonuncu sakini dünyaya gəlib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva bu münasibətlə Azərbaycan xalqını və uşağın valideynlərini təbrik ediblər. Bu, əlbəttə ki, hər bir azərbaycanlını fərəhləndirir. Bu, əlbəttə ki, Prezident İlham Əliyevin müdrik və uzaqgörən rəhbərliyi ilə Azərbaycanda iqtisadi inkişaf, sabitlik və əhalinin sosial rifahının yaxşılaşması istiqamətində görülən böyük işlərin nəticəsidir.

Aparılan sosial-iqtisadi siyasətin əsas uğurlarından biri kimi, dayanıqlı inkişaf şəraitində Azərbaycanda müsbət demoqrafik şərait bərqərar olub. Azərbaycan, bir çox sahələrdə olduğu kimi, bu baxımdan da, nümunəvi ölkədir. Son vaxtlar, xüsusən, bu ilin ilk aylarında Prezident İlham Əliyevin sosial sahədə inqilabi dəyişikliklər kimi qiymətləndirilən və hətta dünyanın inkişaf etmiş ölkələri üçün nümunə ola biləcək islahatları əhalinin rifah halının daha da yüksəldilməsinə böyük təkan verir. Sürətli inkişaf, sosial rifahın daha da yaxşılaşması istiqamətində həyata keçirilən ardıcıl tədbirlər Azərbaycanda əhalinin artım tempinin qorunub- saxlanmasına əminlik yaradır.



### 2003-CÜ İLİN ƏVVƏLİNDƏN ÖLKƏ ƏHALİSİNİN SAYI 1 MİLYON 731 MİN NƏFƏR ARTIB

Dünyanın bir çox ölkəsində əhali sayında azalma müşahidə edildiyi halda, Azərbaycanda əhalinin artımı davam edir. Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyası nəticəsində, bütün sahələrdə mühüm tarixi nailiyyətlərə imza atan, iqtisadi qüdrətini artıran, sabitlik, təhlükəsizlik, əmin-amanlıq məkanı olan ölkəmizdə sosial rifah səviyyəsinin də, davamlı olaraq yaxşılaşması özünü göstərir. Bu amillər isə demoqrafik inkişaf üçün vacib şərtlər sırasındadır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən qəzetimizə verilən məlumata istinadən, 2003-cü ilin əvvəlindən ölkə əhalisinin sayı 18 faizdən çox və ya 1 milyon 731 min nəfər artıb. Azərbaycanda hər il doğulanların sayı artır, misal üçün 2018-ci ildə ölkədə 139 min doğulmuş körpə qeydə alınıb. Ölkəmizdə doğulanların sayı ölənlərin sayını 2-2,5 dəfə üstələyir. Müsbət miqrasiya saldosu davam edir. 2018-ci ildə daimi yaşamaq üçün ölkəmizə gələnlərin sayı gedənlərin sayından iki dəfədən çox olub. 2003-cü ildə ölkədə doğulanlarda gözlənilən ömür uzunluğu 72,3 yaş (o cümlədən, kişilər arasında 69,5 yaş, qadınlar arasında 75,1 yaş) idisə, 2018-ci ildə bu göstərici 75,6 yaşa (o cümlədən, kişilər arasında 73,1 yaşa və qadınlar arasında 77,8 yaşa) çatıb.

Əhalinin artımı qarşısında genişmiqyaslı tədbirlər görülür, yeni uşaq bağçaları və məktəblər, müalicə müəssisələri, idman kompleksləri istifadəyə verilir. Dövlət başçısı Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda bildirib: "Əhali nə qədər çox olarsa, ölkəmiz də o qədər sürətlə inkişaf edər".

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanmaqla, ölkəmizdə davamlı demoqrafik inkişafın təmin edilməsi üçün əhali sakinliyi və demoqrafik inkişaf sahəsində yeni Dövlət Proqramı layihəsi hazırlanıb ki, layihədə ailə institutunun möhkəmləndirilməsi və ailə dəyərlərinin təbliği, ailələrə, xüsusilə, gənc ailələrə sosial-iqtisadi dəstəyin gücləndirilməsi, əhalinin reproduktiv sağlamlığının, habelə, ana və uşaqların mühafizəsinin gücləndirilməsi, həyat şəraitinin təhlükəsizliyinin yüksəldilməsi, miqrasiya proseslərinin tənzimlənməsinin təkmilləşdirilməsi kimi prioritet istiqamətlər müəyyən olunub.

Bununla yanaşı, dövlət başçısının 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" da mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin müəyyən olunmuş iqtisadi prioritetlərinə əsaslanmaqla səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət məşğulluq siyasətini müəyyən edir.

### HƏYATA KEÇİRİLƏN TƏDBİRLƏR ƏHALİNİN SOSİAL MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİNƏ HESABLANIB

Bu gün ölkəmizdə iqtisadi sabitləşmənin nəticəsi olaraq, sosial sahədə ciddi dəyişikliklərə verir.

Əlbəttə ki, iqtisadi sferada islahatlar prosesi dərinləşdikcə, dövlət vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı üzərinə yeni-yeni öhdəliklər götürür, sosialyönümlü siyasətin miqyasını daha da genişləndirir. Həyata keçirilən müxtəlif tədbirlər, islahatlar və maliyyə təminatının gücləndirilməsi sayəsində milli iqtisadiyyatımız 3,3 dəfədən çox artıb ki, bu da, dünya üzrə rekord göstəricidir. Son 16 ildə Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar bu sahədə prinsipcə yeni vəzifələr yaratmış, qarşıya milli normaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması, əhalinin sosial müdafiəsinə yeni yanaşma və ənənəvi metodların təkmilləşdirilməsi kimi tələblər qoymuşdur. Azərbaycan Prezidenti İlham Əliyevin cari ilin son üç ayı ərzində imzaladığı fərman və sərəncamlar dövlətin yeni sosial paketinin işə başladığını göstərir. Dövlət başçısı İlham Əliyevin fevral ayında imzaladığı 8 Sərəncam, 4 Fərman sıravi vətəndaşın sosial vəziyyətinin yaxşılaşdırılması, aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin, tələbələrin sosial müdafiəsinin gücləndirilməsinə hesablanıb və bu tədbirlər sosial sahədə inqilabi dəyişikliklərin başladığını xarakterizə edir.

Dövlət başçısını minimum aylıq əməkhaqqının artırılması haqqında Sərəncamı olduqca mühüm dəyişiklik deməkdir. Sənədə əsasən, bu il martın 1-dən minimum əməkhaqqı 38,5 faiz (50 manat) artırılaraq, 130 manatdan 180 manata yüksəldi. Bu da, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda və özəl sektorda işləyən 600 min işçinin əməkhaqqının artması deməkdir. Onlardan dövlət sektorunda işləyən 450 min nəfərin əməkhaqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əməkhaqqında isə 25 faiz artım özünü göstərib. Minimum əməkhaqqının artırılması ilə bağlı dövlət büdcəsindən illik 400 milyon manat, 2019-cu il üzrə isə (10 ay ərzində) 335 milyon manata qədər əlavə vəsait yönəldiləcək. Orta hesabla ölkəmizdə muzdla çalışan ümumi işçilərin 40 faizinin, büdcədən maliyyələşən sahələrdə isə 55 faizinin əməkhaqları artırılıb.

Təbii ki, tələbələr, magistrlar və doktorantlar da Cənab İlham Əliyevin məlum Sərəncamından yararlandılar. Dövlət başçısının qərarı ilə onlara verilən təqaüdlərdə də ciddi artım müşahidə olundu. Belə ki, əlaçı tələbələr martın 1-dən 210 manat təqaüd almağa başladılar. Xatırladaq ki, əvvəl bu kateqoriyadan olan tələbələrin təqaüdü 185 manat idi. "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" sənədə əsasən, ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı martın 1-dən 16 min vahid artırıldı. Həmçinin, təqaüd alan tələbələrin sayının tələbələrin ümumi sayına olan nisbətinin hazırkı 31 faizdən 2019/2020-ci tədris ilində 45 faizə, 2020/2021-ci tədris ilindən başlayaraq, 50 faizdən az olmayaraq müəyyənləşdirilib. Beləliklə, təqribən 100 minə yaxın tələbənin təqaüdü artırıldı. Bu, yalnız bu qədər tələbənin sosial vəziyyətini yaxşılaşdırmaq yox, onların ailələrinin maddi yükünün azalması deməkdir.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Sabirabadda "Sosial sahədə islahatlar Azərbaycanda uğurla davam edir" mövzusunda müşavirə keçirilib

*Müşavirədə Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının (YAP) sədr müavini-icra katibi Əli Əhmədov iştirak edib*







***Sabirabadda Heydər Əliyev Mərkəzində "Sosial sahədə islahatlar Azərbaycanda uğurla davam edir" mövzusunda müşavirə keçirilib. SİA-nın xəbərinə görə, müşavirədə Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının (YAP) sədr müavini-icra katibi Əli Əhmədov, millət vəkilləri, YAP-ın 10 rayon təşkilatının sədrləri, qadınlar şuralarının sədrləri, idarə heyətinin üzvləri, rayonda fəaliyyət göstərən idarə və müəssisələrin rəhbərləri, rayon ictimaiyyətinin və KİV-lərin nümayəndələri iştirak edib. Müşavirədən öncə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət ediblər.***

Qeyd edək ki, müşavirədə 10 rayonun - Biləsuvar, Salyan, Neftçala, Şirvan, Sabirabad, Saatlı, İmişli, Beyləqan, Füzuli və Cəbrayıl rayon təmsilçiləri iştirak edirlər.

Müşavirəni giriş sözü açan Sabirabad rayon icra hakimiyyətinin başçısı Nazim İsmayılov tədbir iştirakçılarına Sabirabad rayonunda sosial sahədə görülən işlər haqqında məlumat verib. Prezident İlham Əliyevin rayona 8 dəfə səfər etdiyini xatırladan icra başçısı söyləyib ki, ölkə başçısı tərəfindən rayonun sosial qitsadi inkişafının sürətləndirilməsi ilə əlaqədar 25 Sərəncam imzalanıb: "Sərəncamda nəzərdə tutulan tədbirlərin əksəriyyəti əhalinin sosiol problemlərinin həllinə, rifah halının yaxşılaşdırılmasına yönəldilib. Bunun nəticəsində Sabirabad rayonunda çox böyük layihələr həyata keçirilib, rayon üzrə ÜDM 7,9 dəfə artıb".

Daha sonra çıxış edən Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının (YAP) sədr müavini-icra katibi Əli Əhmədov bildirib ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində əldə olunan bütün nailiyyətlər, ilk növbədə insanlarımızın rifah halının, həyatının yaxşılaşdırılmasına, rahatlığının təmin edilməsinə istiqamətlənib.

Ə.Əhmədov bildirib ki, baş verən dəyişikliklərin insanlarımız tərəfindən dərk edilməsi və buna uyğun şəkildə həyatlarını qurması dediklərimizə bariz nümunədir: "Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycanın bütün həyatında, regionlarında olduğu kimi Sabirabad rayonunun da həyatında baş verən dəyişikliklər Ulu Öndər Heydər Əliyevin fəaliyyəti, siyasi iradəsi ilə birbaşa əlaqədar olub. Bu il Azərbaycanda Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlməsinin 50 iliyi qeyd olunacaq. Ulu Öndərin 1969-cu ildə Azərbaycana rəhbər təyin olunmasından sonra ciddi və fundamental dəyişikliklər baş verib".

Baş nazirin müavini qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən 2019-cu ildə əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində atılan addımlar nəticəsində ölkəmizdə təqaüdlərin 116 manatdan 160 manata, yəni 38 faiz artması 300 min vətəndaşın həyatında müsbətə doğru dəyişiklik baş verib: "Eyni zamanda bu və ya digər xarakterli müavinət, güzəştlər alan əhali təbəqələri ciddi şəkildə say etibarı ilə çoxalıb. Büdcə vəsaitlərinin ciddi şəkildə artımı nəticəsində Azərbaycan əhalisinin əhəmiyyətli kəsimi, xüsusilə aztəminatlı hissəsinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə əlaqədar çox ciddi işlər həyata keçirilib. Hesab edirik ki, görülən işlər sosial problemlərin həlli istiqamətində Azərbaycanda çox ciddi addımların atılmasından xəbər verir".

YAP-ın sədr müavini-icra katibi bildirib ki, bundan sonra Azərbaycan hökumətinin iqtisadi imkanlarının artması nəticəsində Azərbaycan vətəndaşlarının həyatının yaxşılaşdırılması istiqamətində daha ciddi tədbirlər, hökumət layihələrinin həyata keçirilməsi gözlənilir: "Bir daha vurğulamaq istəyirəm ki, sosial problemlərin həlli istiqamətində istənilən addımın atılması hər şeydən əvvəl müvafiq maddi bazanın iqtisadi imkanlarının mövcud olması ilə əlaqədardır. Ona görə də Azərbaycan hökumətinin, Prezident İlham Əliyevin insanlarımızın həyat səviyyəsinin yaxşılaşdırılması ilə əlaqədar həyata keçirdiyi bütün tədbirlər ciddi şəkildə əsaslandırılmış siyasət şəklində təqdim olunmalıdır".

Ə.Əhmədov qeyd edib ki, bu gün Azərbaycanda geniş miqyasda aparılan iqtisadi islahatlar nəticəsində ölkəmizin iqtisadi infrastrukturunun yenilənməsi, müasirləşməsi nəticəsində yeni iş yerlərinin açılması ilə bağlı görülən tədbirlər nəticəsində bir tərəfdən Azərbaycanın iqtisadi qüdrətinin güclənməsi, digər tərəfdən isə insanların rifah halının yaxşılaşdırılması istiqamətində daha etibarlı bazanın yaradılması kimi vacib işlər həyata keçirilir: "Təbii ki, insanların sosial həyatının, həyat səviyyəsinin, bütövlükdə ölkədə həyat səviyyəsinin artırılmasının vacib istiqamətlərindən biri insanların işlə təmin edilməsidir. Burada da qeyd edildiyi kimi Sabirabadda da bu istiqamətdə çox böyük işlər görülür, bütövlükdə Azərbaycanda son 15 il ərzində insanların işlə təmin olunması istiqamətində əhəmiyyətli addımlar atılıb. 2 milyona yaxın yeni iş yerlərinin yaradılması Azərbaycan Prezidentinin atdığı ən ciddi sosial addımdır. Sual oluna bilər ki, niyə indi Azərbaycanda Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin sosial yönümü qabarıq şəkildə ortaya çıxıb. Təbii ki, insanların həyatının yaxşılaşdırılması Azərbaycan dövlətinin, ölkə Prezidentinin həyata keçirdiyi strategiyanın əsasını təşkil edir. Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi insanlarımızın rifah halının yaxşılaşdırılmasından savayı vacib vəzifə yoxdur".

Daha sonra deputat Əhliman Əmiraslanov, YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev, YAP Füzuli rayon təşkilatının sədri Almas Həşimova, YAP Saatlı rayon təşkilatının sədri Lütfəli Şıxəliyev, YAP Salyan rayon təşkilatının sədri Rəşad Cəbrayılov və digərləri çıxış edərək ölkədə aparılan sosial islahatlar barədə öz fikirlərini bildiriblər.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş keçirilib



Aprelin 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Tacikistan Respublikasının ölkəmizdəki fövqəlada



və səlahiyyətli səfiri Rüstəm Soli ilə görüşüb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin Sədri qonağı salamlayıb, Naxçıvan Muxtar Respublikasının ərazisi, sərhədləri, idarəetmə quruluşu və iqtisadi inkişafı haqqında ətraflı məlumat verib. Blokada şəraitində yaşamasına baxmayaraq muxtar respublikada kənd təsərrüfatı və sənayenin inkişaf etdiyini, enerji və ərzaq təhlükəsizliyinin təmin olunduğunu bildirən Ali Məclisin Sədri yerli istehsalın və ixracın həcminin artırılması sahəsində görülən işlərdən danışıb. Yaşayış məntəqələrinin sürətli internetlə və rabitə xidməti ilə təmin olunduğunu bildirən Ali Məclisin Sədri elm, nəqliyyat və təhsil müəssisələrinin fəaliyyətinə toxunub, turizm potensialını diqqətə çatdırıb.

Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Tacikistan arasında əlaqələrin inkişafı üçün imkanların olduğunu vurğulayıb və səfərin əhəmiyyətini qeyd edib.

Səfir Rüstəm Soli səmimi görüşə görə minnətdarlıq edib, Naxçıvanda olmaqdan məmnunluq duyduğunu bildirib. Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərindəki muzeyi ilə tanışlığın onda dərin təəssürat yaratdığını qeyd edən diplomat ölkələrimiz arasındakı əlaqələrin inkişafında Ulu Öndərin xidmətlərini xatırladıb, Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafını vacib məsələ kimi dəyərləndirib.

## Milli Məclis sədrinin müavini Bahar Muradova seçicilərlə görüşüb



Milli Məclis sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova Füzuli rayonunun Əhmədbəyli, Mahmudlu və Yağləvənd kəndində rayon rəhbərliyinin və aidiyyəti orqanların rəhbərlərinin iştirakı ilə seçicilərlə görüş keçirib. AZƏRTAC xəbər verir ki, görüş Aprel zəfərini xalqımıza bəxş edən qəhrəman şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb.

Çıxış edən Bahar Muradova bütün xalqımızı və Füzuli sakinlərini şanlı zəfər tariximizin üçüncü ildönümü münasibətilə təbrik edib. Dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə güclənən Ordumuzun bu gün işğalda olan bütün torpaqlarımızı ən qısa müddətdə düşmən tapdağından azad etməyə qadir olduğunu bildirib. Aprel zəfərinin bunun bir daha bizə əyani sübutu olduğunu deyən Bahar Muradova qeyd edib ki, Azərbaycan Ordusu dünyanın ən güclü və ən yaxşı silahlarla təchiz olunmuş ordusu sıralarındadır.

Milli Məclisin deputatı seçicilərin sosial, məşğulluq, əmək, mənzil, əmlak və digər məsələlərlə bağlı müraciət və şikayətlərini dinləyib. Müraciət edən vətəndaşların üzləşdiyi problemlərin və qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunub.

# Möhtəşəm tarixi dövr: 15+1

*Yeni əsrin Yeni Lideri İlham Əliyevin 16 illik Prezidentlik fəaliyyəti dövründə Azərbaycan inamla irəliləyir*

***Xalqları dünyada məşhurlaşdıran təkcə onların zəngin təbii sərvətləri və maddi mədəniyyət inciləri deyil, həm də dünya siyasətində mühüm rol oynayan fenomen şəxsiyyətləridir. Belə fenomen şəxsiyyətlərin müəyyənləşdirdiyi yol, hər bir millətin strateji inkişaf konsepsiyasına çevrilməklə, onun dünya arenasında özünə layiqli yer tutmasını təmin edir. Belə nadir şəxsiyyətlərdən biri, müasir müstəqil Azərbaycan dövlətinin banisi Ulu Öndər Heydər Əliyev güclü dövlət yaratmaqla yanaşı, özündən sonra çoxşaxəli islahatların varisliyini uğurla təmin edə biləcək alternativsiz Lider İlham Əliyevin 16 illik Prezidentlik və 2018-ci il aprelin 11-də xalq tərəfindən seçilərək rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi sistemində özünəməxsus yeri ilə seçilir. Onunla hesablaşırlar, Ona hörmət və ehtiramla yanaşırlar.***



## Yeni əsrin, yeni Lideri

Bəli, Prezident İlham Əliyevin 16 illik Prezidentlik fəaliyyəti nəticəsində, Azərbaycan inamla irəli inkişaf etməkdədir. Onun hakimiyyət illəri ölkənin dinamik inkişafı, sürətlə modernləşməsi, dünyada nüfuz və söz sahibinə çevrilməsi ilə səciyyəvidir. Prezidentimiz mötəbər beynəlxalq təşkilatların - BMT-nin, NATO-nun, ATƏT-in kürsülərində inamlı, cəsarətli, məntiqi çıxışları ilə diqqəti cəlb edir, milli mənafeləri bütün səviyyələrdə qətiyyətlə qoruyur və müstəqil xarici siyasət yürüdür. Qlobal böhranlardan çıxış yolları axtarışında Onun fikrinə, rəyinə hörmətlə yanaşılır. Məhz Prezident İlham Əliyevin düşünülmüş islahatları və müdrik qərarları ilə Azərbaycanı dünyanın inkişaf edən ölkələri sırasına çıxarıb. Ən əsas amil isə, Onun siyasətinin mərkəzində insan amili dayanır. Çünki Onun həyat fəlsəfəsi xalqa xidmət etmək və hər bir azərbaycanlının Prezidenti olmaqdır.



*Fərrux Haqverdiyev,*
*YAP Xızı rayon təşkilatının sədri*

## Düşünülmüş siyasət, uğurlu nəticələr...

Məhz Prezident İlham Əliyevin düşünülmüş və uzaqgörən siyasəti nəticəsində, ölkə iqtisadiyyatı sürətli və dinamik inkişaf dövrünə qədəm qoydu. Belə ki, Azərbaycanın iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artdı, qeyri-neft ixracı 4,1 dəfə çoxaldı. Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan 46 milyard dollara çatdırıldı. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyuldu. Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə, dünya miqyasında 35-ci, ümumi infrastrukturun inkişafına görə isə, 26-cı yerdə qərarlaşdı. Forumun "İnklüziv inkişaf indeksi" adlı illik hesabatında Azərbaycan inkişaf etməkdə olan 80 ölkə arasında 3-cü yerə yüksəldi. Dünya Bankı tərəfindən yayılan "Doing Business 2019" hesabatında Azərbaycan 10 ən islahatçı dövlət siyahısına daxil edilərək, ən çox islahat aparan ölkə elan olundu. Eyni zamanda, aqrar sektorun geniş inkişaf yoluna çıxması nəticəsində, Azərbaycan indi özünün ərzaq təhlükəsizliyini təmin edən nadir ölkələrdən birinə çevrilib.

Prezidentin təşəbbüsü ilə "ASAN xidmət" mərkəzlərinin yaradılması, bununla da dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi, daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə, həyata keçirilən elektron xidmətlərə keçidin sürətləndirilməsi təmin olundu. Bu mərkəzlərə 2013-2018-ci illər ərzində 24 milyona yaxın müraciət daxil olub, xidmətlərin əhali arasında bəyənilmə əmsalı 100 faizə yaxınlaşıb. Təsadüfi deyil ki, Azərbaycan brendi olan "ASAN xidmət" dünyada böyük maraq doğurub və bu təcrübə bir sıra ölkələr tərəfindən öyrənilir.

## Azərbaycan müstəqil xarici siyasət yürüdən ölkədir

Prezident İlham Əliyevin ölkəmizin müstəqillik dayaqlarını möhkəmləndirməklə bağlı fəaliyyəti daha çox xarici siyasətdə özünü göstərdi. Məhz Prezident İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində, Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır və qəbul edilir. Məhz Prezident İlham Əliyevin müəyyənləşdirdiyi hücum diplomatiyası nəticəsində, erməni təbliğatı və erməni lobbisinin yaratdığı mif darmadağın edildi. Beynəlxalq təşkilatların diqqəti bu probleme yönəldi. Dövlətimizin başçısının enerji siyasəti ilə bağlı təşəbbüsləri və reallaşan layihələr regional çərçivələrdən çıxaraq, qlobal miqyas alıb. 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. 2014-cü il sentyabrın 20-də Avropanın enerji təhlükəsizliyinin, həmçinin, Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində böyük rol oynayacaq "Cənub Qaz Dəhlizi"nin təməli qoyuldu. 2018-ci il mayın 29-da Bakıda "Cənub Qaz Dəhlizi"nin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi keçirildi. TAP layihəsinin icrası isə qrafik üzrə davam etdirilir. 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in ("Əsrin müqaviləsi") müddəti 2017-ci il sentyabrın 14-dən 2050-ci ilə qədər uzadıldı. Bu hadisə Azərbaycanda uzun illər bundan sonra da neftin hasilat səviyyəsinin sabit qalmasına, neft sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına imkan yaradıb.

## Regionların sosial-iqtisadi inkişafı ilə şəhərlə kənd arasında fərqi aradan qaldırdı

Bu gün, həqiqətən də, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın regionları bütün zəruri infrastrukturla təmin olunub və Avropanın şəhər və kəndlərindən heç də geri qalmır. Prezidentin tapşırığına əsasən, Azərbaycan başdan-başa qazlaşdırılır. Artıq ölkə əhalisinin təxminən 90 faizə yaxını təbii qazdan istifadə edir. Kəndlərə içməli su xətləri çəkilir, yeni yollar salınır və ya əsaslı təmir olunur. Dövlətimizin başçısının regionlara səfərləri, ictimaiyyətlə görüşləri ənənəvi xarakter alıb. Prezident İlham Əliyev yerlərdə inşa olunan müasir ictimai-sosial obyektlərin, istehsal müəssisələrinin açılışında şəxsən iştirak edir.

Müharibə şəraitində yaşayan, torpaqları işğal altında olan ölkə üçün ordu quruculuğu həyati əhəmiyyətə malik məsələlərdən biridir. Bunu nəzərə alan Prezident, Ali Baş Komandan İlham Əliyev hakimiyyətinin ilk illərindən müasir silahlarla təchiz olunan, yüksək döyüş qabiliyyətinə malik ordu yaradılması istiqamətində davamlı və qətiyyətli iş aparır. Bu gün dünya miqyasında formalaşan ən güclü ordumuz düşmən tapdağı altındakı torpaqlarımızı azad etməyə qadirdir.

Belə ki, Azərbaycan tarixinə zəfər səhifələrindən biri kimi daxil olan aprel döyüşlərində qəhrəman ordumuz Ermənistanın təxribatına cavab olaraq keçirdiyi əks-hücum əməliyyatı nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərinin bir qismini, ümumilikdə, 2 min hektardan çox torpağı işğalçılardan təmizləyərək böyük bir əraziyə nəzarəti ələ aldı. Bu döyüşlərin ən mühüm yekunu Lələtəpə yüksəkliyinin azad olunması, Cocuq Mərcanlının təhlükəsizliyinin təmin edilməsi, qısa müddətdə bərpa olunaraq, orada 150 evdən ibarət qəsəbə tikilməsi və köçkünlərin öz doğma yurdlarına qayıtması, məhz Prezident İlham Əliyevin düşünülmüş siyasətinin nəticəsidir.

## Sosial siyasət, inqilabi islahatlar, vətəndaşlara qayğı...

Prezident İlham Əliyev hakimiyyətə gəldiyi 2003-cu ildən Onun siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. İlham Əliyev ilk dəfə prezident seçiləndə, ölkədə 600 min yeni iş yerinin yaradılacağını vəd etmişdi. Ötən 16 ildə Azərbaycanda 1 milyon 900 min yeni iş yeri yaradıldı, yoxsulluq 50 faizdən 5 faizə düşdü, maaşlar 5 dəfədən, pensiyalar isə 8 dəfədən çox artırıldı. Əhalinin rifahının yaxşılaşdırılması, sosial problemlərin həlli, insanların müasir səhiyyə xidmətləri ilə təmin olunması istiqamətində ardıcıl addımlar atılır. Son 16 ildə ölkədə minlərə məktəb binası tikildi və ya yenidən quruldu, geniş bazaya malik təhsil infrastrukturu yaradıldı, dörd mindən çox məktəb kompüter avadanlığı ilə təmin edildi.

Son 16 il ərzində şəhid ailələrinə və müharibə əlillərinə dövlət hesabına 5500-dən çox fərdi ev və mənzil, 6 mindən çox minik maşını verildi. Şəhidlərin vərəsələrinin maddi vəziyyətinin yaxşılaşdırılması məqsədilə onlara dövlət tərəfindən 11 min manat vəsait verilməsi Sərəncamını imzaladı. Təqribən, 10 minə yaxın ailə dövlət tərəfindən bu pul təminatını alacaq.

2003-2018-ci illərdə məcburi köçkünlərin problemlərinin həlli sahəsində genişmiqyaslı işlər görüldü, ölkədəki bütün çadır düşərgələri, fin tipli qəsəbələr ləğv edildi, yeni salınmış 100-dən artıq qəsəbə və şəhərcikdə 265 min nəfər məskunlaşdırıldı.

Beləliklə, bütün real faktlar ölkə Pezidenti İlham Əliyevin müstəqil Azərbaycanın və xalqının qarşısındakı prezidentlik fəaliyyətinin daha güclü inkişaf, daha firavan həyat və daha qüdrətli dövlət faktorudur ki, artıq bu amil özünü növbəti dəfə aprelin 11-də təsdiqləmiş oldu!

## Ermənistanın ikiüzlü siyasəti Avropa Şurasında ifşa edildi!



Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin üzvü Rafael Hüseynovun qurumun yaz sessiyası ərəfəsində Nazirlər Komitəsinə göndərdiyi yazılı sual sessiyanın ilk iş günündə 14856 saylı ayrıca sənəd kimi ingilis və fransız dillərində nəşr edilərək parlamentarilərə paylanılıb.

AZƏRTAC xəbər verir ki, deputatın sualı Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətini Assambleya üzvlərinə çatdırmaqla bərabər təcavüzkar ölkənin danışıqlar prosesinə ciddi xələl gətirən addımlarını da ifşa edib.

R.Hüseynov Ermənistan xarici işlər nazirinin Amerika Birləşmiş Ştatlarına səfəri zamanı verdiyi məsuliyyətsiz bəyanata diqqəti cəlb edərək bildirib: "Ərazilərinin 20 faizi Ermənistan tərəfindən işğal edilən və bunun nəticəsində 1 milyon qaçqın və məcburi köçkünü olan, əsas zərər çəkən tərəf - Azərbaycan yenə də 30 ilə yaxın müddətdə davam edən münaqişənin diplomatik vasitələrlə həllinin tərəfdarıdır. Azərbaycan və Ermənistan rəhbərlərinin son danışıqları da əslində bu məqsədə xidmət edir. Lakin ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə sülhməramlı proseslərin davam etdiyi bir vaxtda Ermənistanın müdafiə naziri David Tanoyan "Amerikanın səsi"nin xəbərinə görə, martın son günlərində Nyu-Yorkda bəyan edib ki, "biz Azərbaycandan yeni ərazilər işğal etmək üçün yeni müharibəyə başlayacağıq. Təəssüf ki, onun ardınca baş nazir Paşinyan da bu mövqeyi təsdiq etmiş və yeni işğal planlarına şərik olduğunu bildirmişdir".

Nazirlər Komitəsinin deputat Rafael Hüseynovun yazılı sualına cavab olaraq yaydığı sənəddə belə addımların yolverilməzliyi vurğulanaraq danışıqlar prosesinə zərər gətirən istənilən ehtiyatsız addımdan çəkinməyə çağırılır: "Əvvəlcə xatırlatmaq istərdik ki, Dağlıq Qarabağ münaqişəsi üzrə nizamlama prosesi ATƏT-in Minsk qrupunun səlahiyyətlərinə daxildir. Mən bir daha hər iki ölkəyə xatırlatmaq istərdim ki, onlar danışıqlar yolu ilə nizamlama prosesini təhlükə altına ala biləcək hər cür bəyanatlar və hərəkətlərdən çəkinməlidirlər. Belə bir faktı qeyd etmək çox xoşdur ki, Vyanada Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın görüşündən bir neçə saat sonra hər iki ölkənin xarici işlər nazirləri də birgə bəyanat verdilər ki, müsbət və konstruktiv şəraitdə keçən görüş hər iki ölkə liderinə öz mövqelərini aydınlaşdırmaq imkanı yaratdı. Ümid edirəm ki, Avropa Şurasının üzvü olan bu iki ölkə arasında gələcək müzakirələr də elə bu ruhda davam edəcək. Humanitar sahədə tədbirlər və əhalinin sülhə hazırlanması haqqında Vyana razılaşmasının tezliklə həyata keçirilməsinin vacibliyini isə ayrıca qeyd etmək istərdik".

## Şəmkirdə "Dini radikalizm və ekstremizm milli təhlükəsizliyə əsas təhdidlərdən biri kimi" mövzusunda seminar keçirilib



Dövlət Sərhəd Xidmətinin (DSX) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə tədbirlər planına uyğun olaraq, aprelin 5-də Şəmkir Sərhəd Dəstəsində "Dini radikalizm və ekstremizm milli təhlükəsizliyə əsas təhdidlərdən biri kimi" mövzusunda seminar keçirilib.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, seminardan əvvəl hərbi qulluqçular və qonaqlar hərbi hissədəki Heydər Əliyev İdeoloji Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən zəngin fotoekspozisiya ilə tanış olublar.



Dövlət himninin səsləndirilməsi ilə başlayan seminarda Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Cahangir Əlifzadənin iştirakı ilə keçirilən seminarda dini radikalizmin və ekstremizmin təbliğat metodları, onların törətdiyi fəsadlar barədə ətraflı məlumat verilib. Bəzi qüvvələrin din pərdəsi altında ölkəmizin ictimai-siyasi sabitliyinə, dövlətimizin hüquqi-demokratik əsaslarına qarşı yönəldilmiş pozuculuq fəaliyyətləri, vətəndaşlarımızı xarici dini ekstremist qrupların və onların silahlı dəstələrinin tərkibinə qoşmaq cəhdləri qətiyyətlə pislənib. Belə əməlləri törətməyə cəhd edənlərə qarşı dövlət qurumları tərəfindən görülən tədbirlərin müsbət nəticələrindən danışılıb. Eyni zamanda, respublikamızda hökm sürən sabitliyi gözü götürməyən bəzi kənar qüvvələrin dəstəyi ilə din pərdəsinə bürünən cinayətkar ünsürlər tərəfindən keçən ilin iyulunda Gəncədə ictimai asayişi pozaraq vətəndaş qarşıdurması yaratmaq cəhdləri barədə ətraflı məlumat verilib.

Tədbirdə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkəmizdə müxtəlif dinlərə etiqad edən insanların mehriban və qarşılıqlı hörmət şəraitində yaşadıqları, respublikamızın tolerantlıq və multikulturalizm nümunəsinə çevrildiyi xüsusi qeyd olunub. Seminarda dini amillərdən yararlanaraq radikallığa cəhd göstərən qüvvələrə qarşı mübarizədə hamının, xüsusən gənc nəslin sayıqlıq göstərməsinin zəruriliyi vurğulanıb. Sonda dini radikalizmin və ekstremizmin törətdiyi fəsadlara həsr edilmiş "Şəhadət" sənədli filmi nümayiş etdirilib.

## Hacıbala Abutalıbov: "Sərəncamlara özüm cavabdehəm"



Xəbər verdiyimiz kimi, "Unikal" qəzetinin şənbə günü sayında "Hacıbala Abutalıbovdan yüz milyon istəyirlər" başlıqlı yazı ajiotaj yaradıb. SİA-nın verdiyi məlumata görə, Hacıbala Abutalıbov məsələ ilə bağlı unikal.org-a zəng edərək, barəsində yayılan informasiyaya mövqeyini bildirib:

"Mənə yalnız bir qadın sahibkar müraciət edib. Həmin qadın sənədlərini mənə şəxsən təqdim etdi. Biz həmin sənədləri tam şəkildə araşdırdıq. Yüksək ixtisas sahibləri və mütəxəssislərlə müzakirə elədik. Həmçinin, tikintiyə icazəni hazırlayan Azərbaycanda yüksək mütəxəssis kimi tanınan Nadir Adıgözəlov keçmişdə Bakı Baş Tikinti İdarəsində yüksək vəzifələrdə işləyən, çox təmiz bir insan tərəfindən də yoxlanıldı. Müəyyən olundu ki, sərəncam qanunidir. Bütün tikinti təşkilatları, nazirlik, komitə, şirkətlər tərəfindən müsbət rəylər alınıb. Tikintinin aparılması qanuni sənəd kimi, hətta nişan da verilib. Heç bir qanun pozuntusu yoxdur. Bununla əlaqədar olaraq şəxsən mən Nazirlər Kabineti adından imzaladım. Sənədləri Fövqəladə Hallar naziri Kəmaləddin Heydərova, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Samir Nuriyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova göndərdim ki, tikintinin aparılması qanunidir. Yəni, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı kimi mən imzaladığım sənədlə bağlı hər hansı problem yoxdur. Ona görə də həmin qadın çox sevinclə mənim yanımdan ayrıldı. Tikinti işləri bu gün də davam etdirilir. Qalan sahibkarların da hər hansı biri müraciət etsə, mən onlara müsbət cavab verərəm. Onlara üzümü tutub deyirəm ki, imzaladığım sərəncamlar qanunidir. Çünki Bakı Şəhər İcra Hakmiyyətinin başçısı işlədiyim zaman tikintiyə icazə sənədi hazırlayan şöbə müdiri Nadir Adıgözəlov tərəfindən hazırlanmış o sənədlər tam qanunlara uyğundur. Tərəfimdən sərəncam verdiyim həmin sənədlərlə sahibkarlar tikinti apara bilərlər. Burada ikinci söz ola bilməz. Bir daha diqqətə çatdırıram ki, icra başçısı olduğum zaman imzaladığım bütün sərəncamlara özüm cavabdehəm".

## XİN: "Bu məlumatlar konkret faktlara əsaslanmır"



"Bu günlərdə bəzi kütləvi informasiya vasitələrində yayılan "Azərbaycan NATO üzv ölkələri üçün öz ərazisindən keçən dəhlizi bağlayır" ifadəsi həqiqətə uyğun deyil. Vəziyyətin aydınlaşdırılması məqsədilə qeyd etmək istərdik ki, Azərbaycan dəhliz mənasında heç kimə, o cümlədən NATO-ya hər hansı ərazisini vermir". Bunu SİA-ya Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva deyib.

XİN rəsmisinin sözlərinə görə, burada söhbət NATO-nun Əfqanıstanda həyata keçirdiyi və Azərbaycanın da iştirakçısı olduğu "Qətiyyətli Dəstək" missiyasının üzvlərinə ölkə ərazisindən, o cümlədən quru, hava və su məkanından sözügedən missiya çərçivəsində müvafiq yük daşımalarının həyata keçirilməsi üçün müvafiq imkanının təmin edilməsindən gedir: "Belə bir təcrübə 2001-ci ildən mövcuddur. Bu imkanların təmin olunması üçün NATO üzv ölkələrinin müvafiq uçuş icazələrinin əldə edilməsi müraciətləri ikitərəfli əsaslarda nəzərdən keçirilir. Sözügedən müraciətlərə Azərbaycan tərəfinin müvafiq qayda və prosedurlarına uyğun olaraq, eləcə də tərəfdaşlığın təməlini təşkil edən dövlətlərin bir-birlərinin suverenliyi və ərazi bütövlüyünə hörmət və əməkdaşlıq prinsipləri əsasında baxılır.

Bugünədək Azərbaycan məhz bu prizmadan yanaşaraq NATO-nun Əfqanıstanda həyata keçirdiyi missiyasına, eləcə də ümumiyyətlə bölgədəki sülh və təhlükəsizliyə öz töhfəsini verib. ABŞ və digər NATO ölkələri Əfqanıstana uçuşlarını məhz Azərbaycan ərazisindən istifadə etməklə həyata keçirirlər. Digər tərəfdən, bu gün Azərbaycan trans-regional əlaqələndirmə ölkəsi kimi tanınır. Azərbaycan ərazisinin quru və su məkanı üzərindən tranzit imkanları yaradılıb. 2017-ci ildən etibarən fəaliyyətə başlayan Bakı-Tbilisi-Qars dəmir yolu xətti və ötən ildən Ələt Beynəlxalq Dəniz Limanınıntam fəaliyyətə keçməsi bu xüsusda yeni imkanlar açıb. Bir neçə NATO üzv ölkələri Əfqanıstana yük daşımalarını məhz bu yollardan istifadə etməklə təmin edirlər. Bütün bu qeyd olunanların müsbət dəyərləndirilməsinin davamı olaraq cari ilin 4 aprel tarixində Vaşinqtonda NATO Baş katibi mətbuat konfransında açıqlama ilə çıxış edərək qeyd etmişdir ki, Azərbaycan Alyansın yaxın tərəfdaşıdır və ölkəmiz beynəlxalq sülh və təhlükəsizliyin bərqərar olunmasında NATO ilə sıx əməkdaşlıq edir. Baş katib, həmçinin Azərbaycanın NATO-nun "Qətiyyətli Dəstək" missiyasına əhəmiyyətli hərbi qüvvə və multimodal tranzit töhfəsi verdiyini qeyd edib, bu xüsusda, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Əfqanıstana daşımalar zamanı istifadə olunduğu və bu dəmir yolunun Alyansın "Qətiyyətli Dəstək" missiyasına mühüm töhfə verdiyini vurğulayıb. Vurğulamaq istərdik ki, Baş katib NATO ölkələrinin kollektiv mövqeyini təqdim edir və Baş katibin sözügedən bəyanatı da məhz bu əsaslarda verilib.

Bununla yanaşı, son günlər Almaniya mətbuatına sızılmış məlumatlar və ittihamlar anlaşılmazlıq yaratmaqla yanaşı, kiminsə qərəzliliyindən xəbər verir. Əsassız ittihamları özündə əks etdirən bu məlumatlar konkret faktlara əsaslanmır. Bir daha bildiririk ki, Azərbaycan müvafiq tərəfdaşlıq prinsipləri əsasında və beynəlxalq hüququn normalarına uyğun olaraq NATO üzv ölkələri ilə əməkdaşlıq edib, hazırda edir və gələcəkdə də bu əməkdaşlığı davam etdirməyə hazırdır. Almaniya KİV-ə sızılmış məlumata istinadən müşahidə etdiyimiz uydurma kampaniya yanlışdır və Azərbaycan haqlı olaraq gözləyir ki, Almaniya hökuməti müvafiq şəkildə özü bu məsələni cavablandıracaqdır. Azərbaycan NATO üzv ölkələrinin müraciətlərinə bundan sonra da müvafiq şəkildə baxmağa davam edəcəkdir".

*Ceyhun Rasimoğlu*

# "Prezident bir ildə verilmiş vədləri doğrultmaq nümunəsi yaratdı"

***"Prezident seçkilərindən ötən son bir il ərzində Azərbaycanda görülən işlər seçki kampaniyası dövründə verilmiş vədlərin ardıcıl icrası baxımından diqqətəlayiq olmaqla yanaşı, həm də məzmununa görə Prezident İlham Əliyevin 15 ildə gördüyü işlərdən müəyyən qədər fərqlənir". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.***

Siyasi şərhçinin sözlərinə görə, 1 il bundan öncə seçki kampaniyasında verilən vədlərin qrafikə uyğun icrası bir daha göstərir ki, Azərbaycan Prezidenti xalqla yalnız yerinə yetirilməsi mümkün işlər barədə dialoq aparır, qeyri-real vədlər vermir, verilmiş vədlərə görə cəmiyyət qarşısındakı məsuliyyətinə prinsipial yanaşır: "Son bir ildə həyata keçirilmiş işlərin ümumən son 15 ildəki fəaliyyətlərdən əsas fərqi əhalinin sosial müdafiəsinə və təminatına yönəlik paketlərin icraatının üstün-



lük təşkil etməsidir. Sosial sahə hər zaman dövlətin diqqət mərkəzində olub. Lakin son bir ildə bu işlər öz ağırlığı ilə diqqət cəlb edir. Prezidentin bir ildəki fəaliyyəti iqtisadi, siyasi və xarici fəaliyyət sahəsində seçilmiş kursun davamı olmaqla seçki platformasına da tam uyğun olması ilə xarakterikdir".

A.Quliyev söyləyib ki, Azərbaycan Prezidenti yeni iqtisadi modelə keçid etməyi, islahatları keyfiyyətcə yeni mərhələyə çıxarmaqla, sosial sahədə heç bir layihəni ixtisara salmadan geniş sosial müdafiə paketləri icra etməyi, hər bir vətəndaşın mənafelərinə yönəlik siyasəti daha da dərinləşdirməyi, Dağlıq Qarabağ probleminin həlli sahəsində ölkənin mövqelərini daha da möhkəmləndirməyi öz seçki platformasının əsas prinsipləri kimi cəmiyyətə təqdim etmişdi: "Bu istiqamətlərin hər biri üzrə təhlil aparanda ortada böyük nəticə olduğunu görürük. Bir ildə ən böyük nəticəni Prezidentin xalqla münasibətləri müstəvisində görürük. Bu münasibətlər daha canlı, birbaşa, səmərəli və təsirli olmağa başlayıb. İslahatların, sosial müdafiənin və iqtisadi artım tempinin təmin edilməsi bu nəticənin əldə olunmasında həlledici rol oynayır. İqtisadi inkişaf, xüsusilə qeyri-neft sektorunun gücləndirilməsinə yönəlik fəaliyyətlər çox əhəmiyyətlidir".

Baş redaktor qeyd edib ki, son 1 ildə görülən işlər nəticəsində Ermənistan tam təcrid vəziyyətinə çatdırılıb, dünya Azərbaycanı dəstəkləyir, ordu quruculuğu böyük sürətlə gedir: "Bütün bunlar Prezidentin seçki platformasının reallaşdığını göstərən faktlardır. Prezident bir ildə verilmiş vədləri doğrultmaq nümunəsi yaratdı".

***Nailə Məhərrəmova***

# Müdafiə Nazirliyi: Azərbaycan Ordusu sülhə yox, müharibəyə hazırdır

***Dünyada elə bir dövlət yoxdur ki, onun ordusu sülhə hazırlaşsın. Orduların vəzifəsi sülhə yox, məhz müharibəyə hazır olmaqdır. Bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı Ermənistanın müdafiə naziri David Tonoyanın Azərbaycanın hərbi-siyasi rəhbərliyinin ordunu sülhə hazırlamaqla bağlı dediyi fikri AZƏRTAC-a şərh edərkən bildirib.***



"Ordunun funksiyası daim müharibəyə hazır olmaqla ölkənin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün qorunması, habelə təhlükəsizliyinin və müdafiəsinin təmin edilməsidir. Ali Baş Komandanımızın bəyan etdiyi kimi, Ermənistan sülh istəyirsə, erməni əsgəri Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxmalıdır. Ermənistanın hərbi-siyasi rəhbərliyi birdəfəlik anlamalıdır ki, yalnız torpaqlarımızı işğaldan azad etdikdən sonra Ordumuz sülh haqqında düşünə bilər. İndiki şəraitdə isə Azərbaycan Ordusu sülhə yox, müharibəyə hazırdır", - deyə polkovnik V.Dərgahlı bildirib.

# Kürdəmirdə "Azərbaycan ailəsi" mövzusunda tədbir keçirilib





***Aprelin 5-də Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı və Kürdəmir Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Kürdəmirdə "Azərbaycan ailəsi" mövzusunda konfrans keçirilib.***

Tədbirdə Fondun icraçı direktorunun müavini Ceyhun Əliyev, Fondun Mənəvi dəyərlərin təbliği şöbəsinin müdiri Hatəm Gülməmmədov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ucar bölgəsi üzrə şöbəsinin müdiri Əzim Rəfiyev, Kürdəmir Rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Elxan Qafarov, Kürdəmir rayonu Xırdapay kənd tam orta məktəbinin direktoru İnqilab Rəsulov, ziyalılar, müəllimlər, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Kürdəmir Rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı E.Qafarov tədbirin məqsədi haqqında məlumat verərək bildirib ki, gənclərin maarifləndirilməsi, əxlaqi-mənəvi dəyərlər ruhunda tərbiyəsi üçün belə tədbirlərin keçirilməsi çox əhəmiyyətlidir. Sağlam ailə sağlam cəmiyyət deməkdir. Başqa sözlə, toplumun, dövlətin əsasını sağlam ailələr təşkil edir.

Konfransda çıxış edən Fondun icraçı direktorunun müavini C.Əliyev sağlam təməllər üzərində qurulan ailənin cəmiyyətin mənəvi inkişafında mühüm rola malik olduğunu vurğulayıb. C.Əliyev qeyd edib ki, tarixən ailə xalqımızın yüksək mənəvi dəyərlərinin qoruyucusu, genofondumuzun daşıyıcısı kimi milli inkişafımızda mühüm rol oynamışdır.

Fondun Mənəvi dəyərlərin təbliği şöbəsinin müdiri Hatəm Gülməmmədov bildirib ki, cəmiyyətin islahı ailədən başlayır. Ailə cəmiyyətin rüşeymidir. Sevgi, qarşılıqlı hörmət, diqqət və qayğı ilə zəngin olan ailə sağlam ailədir.

Kürdəmir rayonu Xırdapay kənd tam orta məktəbinin direktoru İ.Rəsulov ailədə övlad tərbiyəsi mövzusuna toxunaraq qeyd edib ki, valideynlər hər zaman övladlarına qarşı diqqətli olmalı, zamanının bir hissəsini onların tərbiyəsinə həsr etməlidirlər.

Daha sonra Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə hazırlanmış "Ailə dəyərləri" filmi nümayiş olunub.

Konfransın yekununda iştirakçılarla geniş fikir mübadiləsi aparılıb və onları maraqlandıran suallar cavablandırılıb.

# Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi münasibətilə Dənizkənarı Milli Parkda atəşfəşanlıq olub







Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi münasibətilə aprelin 7-də Dənizkənarı Milli Parkda konsert proqramı təşkil edilib. AZƏRTAC xəbər verir ki, konsert atəşfəşanlıqla başa çatıb. Şəhər sakinləri və paytaxtımızın qonaqları incəsənət ustalarının ifasında şən mahnıları dinləyib, atəşfəşanlığa maraqla tamaşa ediblər. On milyonuncu sakinin doğulması münasibətilə gün ərzində Bakı şəhərinin bir sıra rayonlarında ağacəkmə aksiyası və konsert proqramları təşkil olunub. Xatırladaq ki, aprelin 6-da keçmiş Ağdərə rayonunun sakinləri, hazırda Ağdam rayonunun Baş Güneypəyə kəndində qeydiyyatda olan məcburi köçkün Ocaqova Nigar Çərkəz qızı ilə Həsənov Rauf Yunis oğlunun ailəsində Azərbaycanın 10 milyonuncu sakini dünyaya gəlib.

# Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi İslam ölkələrinin antiterror hərbi koalisiyası mərkəzində olub



Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkovun rəhbərlik etdiyi nümayəndə heyəti Səudiyyə Ərəbistanına səfəri çərçivəsində İslam ölkələrinin antiterror hərbi koalisiyası mərkəzində olub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, general-polkovnik N.Sadıkov ilə qurumun rəhbərliyi arasında keçirilən görüşdə mərkəzin strukturu, əsas məqsədi və tapşırıqları, fəaliyyətinin prioritet istiqamətləri barədə ətraflı məlumat verilib.

## Alman portalında Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi barədə xəbər yerləşdirilib



Almaniyanın "Berliner Press" internet-nəşri Azərbaycanın 10 milyonuncu sakininin dünyaya gəlməsi barədə AZƏRTAC-ın xəbərini yerləşdirib. Materialda 2019-cu il aprelin 6-da saat 03:30-da Bakıda Azərbaycan vətəndaşının ailəsində qız uşağının dünyaya gəlməsindən bəhs edilir, körpənin boyu və çəkisi haqqında məlumat verilir. Bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ölkənin 10 milyonuncu sakininin xoşbəxt valideynlərini təbrik ediblər.

## Sinxua agentliyi Azərbaycan əhalisinin sayının 10 milyona çatmasından yazır

Çinin milli xəbər agentliyi Sinxua Azərbaycan əhalisinin sayının 10 milyona çatması haqqında məlumat yayıb. AZƏRTAC xəbər verir ki, agentliyin internet səhifəsində yerləşdirilən xəbərdə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bu əlamətdar hadisə münasibətilə Azərbaycan xalqını təbrik etdiyi bildirilib. Sinxuanın məlumatında Azərbaycan əhalisinin cins tərkibi, habelə şəhərlərdə və kəndlərdə yaşayanların ümumi əhali sayındakı faiz nisbəti göstərilib.



Azerbaijan's population hits 10 mln

Source: Xinhua | 2019-04-08 02:34:48 | Editor: huaxia

A general view of the Azeri capital Baku on March 22, 2019. (AFP Photo)

BAKU, April 6 (Xinhua) -- The 10 millionth Azerbaijani citizen was born here on Saturday morning, according to the country's State Statistics Committee.

The birth weight of the 52-cm baby girl is 3.6kg, health authorities said.

President Ilham Aliyev and First Vice-President Mehriban Aliyeva congratulated the newborn's parents and the nation.

Statistics show that as of Feb. 1, 49.9 percent of Azerbaijan's population are men, while 50.1 percent are women. About 52.8 percent of the country's population live in cities and towns, while 47.2 percent are villagers.

## Türk alimi: "ermənilərin Osmanlının "köləsi" olduğu barədə iddiaları nankorluqdur"



ABŞ-ın Kaliforniya Universitetinin məzunu, tarixçi-jurnalist Əmrə Solak erməni jurnalistinin guya ermənilərin Osmanlı imperiyasında "kölə" vəziyyətində yaşamaları ilə bağlı fikirlərini tarixi faktlarla təkzib edib. Anadolu agentliyi xəbər verir ki, "əzabkeş xalqın" bu nankorluğunu Osmanlı arxivlərindən çıxarılan sənədlərlə ifşa edən türk alimi erməni jurnalistinin "Osmanlı dövlətində irqçiliyin olduğu, ermənilərin ictimai yerlərə, restoranlara, müsəlman məktəblərinə buraxılmadığı", onların ikinci növ insanlar hesab olunması fikirlərini növbəti yalan adlandırıb.

Tarixçi faktlarla sübut edib ki, XIX əsrdə Osmanlı imperiyasında 29 erməniyə paşa hərbi rütbəsi verilib, "əzabkeş xalqın" 22 nümayəndəsi hökumətin naziri, o cümlədən xarici işlər, maliyyə, ticarət nazirliklərinə rəhbər təyin edilib. Bundan başqa, Osmanlı parlamentində 33 erməni mənşəli deputat, xarici ölkələrdə isə 7 səfir və konsul olub. E.Solak qeyd edib ki, "kölə vəziyyətində yaşayan insanlar bu cür yüksək vəzifələrə təyin edilə bilməzdilər".

Anadolu agentliyinin yaydığı xəbərdə adları yer alan erməni mənşəli Osmanlı paşalarının bir neçəsi, habelə hökumət üzvləri dövlətin ağır vaxtlarında xəyanət yolunu seçib, onlara insani münasibət göstərən türklərə arxadan zərbə vurublar.

# Azərbaycan brendi olan "ASAN xidmət" mərkəzlərinin sayı artır

*Dövlət başçısı Bakı şəhərində iki yeni "ASAN xidmət" Mərkəzinin layihələndirilməsi və tikintisi haqqında Sərəncam imzalayıb*

***Müasir Azərbaycan innovativ texnologiyalardan istifadə imkanları ilə dünyada seçilən ölkələr sırasındadır. Dövlət başçısı tərəfindən Azərbaycanda ən qabaqcıl texnologiyaların tətbiqi, cəmiyyətdə informasiya texnologiyalarının istifadəsinə əlverişli şəraitin yaradılması üçün məqsədyönlü işlər həyata keçirilir. Dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində əhəmiyyətli işlər görülüb və müvafiq hüquqi baza formalaşdırılıb.***




Azərbaycan Prezidenti İlham Əliyevin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanı ölkəmizdə, nəinki elektron hökumətin inkişafı və həm də korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsində mühüm rol oynadı. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır. 2012-ci ildən bu sahədə daha mühüm islahata imza atıldı. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN xidmət" mərkəzləri yaradıldı. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək "ASAN xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi.

### AZƏRBAYCAN BRENDİ OLAN "ASAN XİDMƏT"Ə YARADILDIĞI GÜNDƏN İNDİYƏ QƏDƏR 28 MİLYONDAN ÇOX MÜRACİƏT EDİLİB

2012-ci il dekabrın 29-da pilot layihə olaraq Bakıda 1 saylı "ASAN xidmət" Mərkəzi fəaliyyətə başladı. 2013-cü il ərzində paytaxtın bir neçə rayonunda "ASAN xidmət" mərkəzləri istifadəyə verildi. Daha sonra bu proses regionları da əhatə etməyə başladı. Bu gün ölkəmizin müxtəlif məkanlarında bu mərkəzlər fəaliyyət göstərir. Bu gün mərkəzlərin sayı artır. Eyni zamanda, "ASAN xidmət" səyyar şəkildə də vətəndaşlara xidmət göstərir. Azərbaycanın regionlarına səyyar təşkil olunan xidmətdən yüzlərlə insan yararlanır və dövlət tərəfindən yaradılan şəraitdən məmnun qalırlar. "ASAN xidmət" mərkəzlərində 11 dövlət qurumu və özəl müəssisələr tərəfindən birgə 300-dən çox müxtəlif xidmətlər həyata keçirilir. Eyni yerdə xidmətin göstərilməsi, tam şəffaflıq, korrupsiya və rüşvətxorluq sıfıra endirilib. "ASAN xidmət" bir çox ölkələr üçün cəlbedicidir. Hazırda ölkəmizdə 15 mərkəz fəaliyyət göstərir. Onlardan 5-i Bakıda, 10-nu isə Azərbaycanın bölgələrindədir. Sırf Azərbaycan brendi olan "ASAN xidmət"in yaradıldığı gündən indiyə qədər gündəlik müraciət sayı 30 minə yaxın olan 28 milyondan çox müraciət edilib. Qeyd edək ki, xidmətlərin göstərilməsində könüllülər də cəlb olunur. Deməli olar ki, hər mərkəzdə yüzə yaxın könüllü çalışır. 2019-cu ilin sonunadək daha beş mərkəzin istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

Bu günlərdə isə Bakı şəhərində iki yeni "ASAN xidmət" Mərkəzinin layihələndirilməsi və tikintisi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Sərəncama əsasən, bu sahədə işlərin davam etdirilməsinin əhəmiyyətini, habelə, Bakı şəhərində əhalinin sıxlığı və müvafiq dövlət xidmətlərinin yalnız "ASAN xidmət" mərkəzlərində həyata keçirilməsi nəticəsində, müraciətlərin sayının artması ilə bağlı yeni "ASAN xidmət" mərkəzləri yaradılmasının zəruriliyini nəzərə alaraq, Bakı şəhərində iki yeni "ASAN xidmət" Mərkəzinin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə, ilkin olaraq, 6,0 (altı) milyon manat ayrılıb.

Təbii ki, müasir dövrümüzdə "ASAN xidmət" qısa müddətdə uğur qazanıb və dünyaya nümunə olan modelə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyevin dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində həyata keçirdiyi islahatların tərkib hissəsi olan "ASAN xidmət" dövlət və özəl xidmətlərin vahid məkandan innovasiyaların tətbiqi ilə vətəndaşlara çatdırılması sahəsində uğurlara səbəb olub. Milyonlarla insanın müraciət etdiyi bu xidmət bürokratiyasız, korrupsiyasız, rahat və mədəni şəkildə gözəl xidmətlər həyata keçirir. Azərbaycan Prezidenti İlham Əliyev vətəndaşların rahatlığını təmin edən mərkəz haqqında dediyi kimi: "ASAN xidmət", "doğrudan da, ictimai xidmətlər, ümumiyyətlə, ictimai əlaqələr sahəsində bir inqilab olub. Bu gün dünyanın aparıcı maliyyə qurumları bizim təcrübəmizi çox yüksək qiymətləndirir və tövsiyə edirlər ki, bu təcrübə başqa ölkələrdə də tətbiq olunsun. Azərbaycan indi intellektual məhsulları həm yaradır, həm də ixrac edir. Bu, doğrudan da, çox böyük hadisədir".

### "BİZ İSTƏYİRİK Kİ, İNSANLAR RAHAT YAŞASINLAR, ƏN GÖZƏL XİDMƏTLƏRƏ MALİK OLSUNLAR"

Azərbaycanın "ASAN xidmət" modeli dünyanın bir çox ölkələri, beynəlxalq təşkilatları tərəfindən yüksək qiymətləndirilir və bu təcrübəyə böyük maraq var. "ASAN" Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidməti Mükafatına layiq görülüb.

Bu gün Azərbaycan dünyaya inteqrasiya edir, öz məhsullarını dünya bazarına çıxarır, modern və yenilikçi ölkə olaraq dünyanın qabaqcıl ölkələri ilə əməkdaşlığa üstünlük verir. Əvvəllər yeni texnologiyalar, yeniliklər xaricdən Azərbaycana gətirildiyi halda, müasir dünyamızda Azərbaycan bu yeniliklərlə dünyanı təəccübləndirir. İnkişaf etmiş ölkələr intellektual məhsulun sahibi kimi çıxış edirdilərsə də, bu gün Azərbaycanda intellektual məhsul yaradılıb. Cənab İlham Əliyev "ASAN xidməti" xalqımızın intellektual səviyyəsinin və Azərbaycanın inamlı inkişafının göstəricisi kimi dəyərləndirir.

Dövlət başçısı çıxışlarının birində bildirib ki, "ASAN xidmət" Azərbaycan brendidir, Azərbaycanın intellektual məhsuludur: "O məhsul ki, bu gün biz onu xaricə ixrac edirik. Bir neçə ölkə "ASAN xidmət"lə maraqlanır. Bizim "ASAN xidmət" bir neçə ölkə ilə müvafiq sənədlər imzalayıb və artıq bir neçə ölkədə "ASAN xidmət" mərkəzləri yaradılır.

Ümumiyyətlə, Azərbaycanda gedən bütün işlər müasir səviyyədə həyata keçirilir. Hər görülən iş, aparılan islahatlar, reallaşan layihələr insanların sosial məişətinin və həyatın firəvanlığına yönəlib. Buna Azərbaycanın, bütövlükdə, inkişafı imkan verir. "Ölkəmiz müasirləşir və inkişaf edir. "ASAN xidmət"in fəaliyyətə başlaması bizim niyyətimizi göstərir. Biz istəyirik ki, insanlar rahat yaşasınlar, ən gözəl xidmətlərə malik olsunlar" deyən Cənab İlham Əliyev korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə də "ASAN xidmət"in çox mühüm rol oynadığını vurğulayıb. Eyni zamanda, bu mərkəzdə yeni texnologiyalar və innovasiyalar tətbiq olunur. Bu, innovasiya, yeni fikrin və yeni yanaşmanın yaranması Azərbaycanın inkişafının göstəricisidir.

Bu gün "ASAN xidmət" Mərkəzində vətəndaşların rahatlığı, şəffaflıq təmin edilir və "bir pəncərə" prinsipi tətbiq olunur. Əlbəttə ki, bu dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni düşüncə tərzinin "dövlət qulluqçusunun vəzifəsi vətəndaşın hüququnu təmin etməkdir" yanaşmasının formalaşdırılmasına da müsbət təsirini göstərir.

***ZÜMRÜD BAYRAMOVA***

# Azərbaycan dövləti həmişə vətəndaşlarının yanındadır

*"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlunun yap.org.az-a müsahibəsi*

***- Hikmət müəllim, Azərbaycanda dərin iqtisadi və institusional islahatların davamı kimi hüquqi islahatlar həyata keçirilir. Bu baxımdan, məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi istiqamətində müvafiq tədbirlərin reallaşdırılması və "Mediasiya haqqında"qanunun tətbiqi mühüm əhəmiyyətə malikdir. Bu barədə nə deyə bilərsiniz?***



- Azərbaycanda son 15 il ərzində bütün sahələri əhatə edən sistemli və kompleks islahatlar aparılıb, ölkə iqtisadiyyatının dayanıqlı və dinamik inkişafı təmin edilib. Eyni zamanda, çevik və məqsədyönlü fəaliyyət göstərən yeni idarəetmə strukturunun formalaşdırılması üçün mühüm institusional islahatlar həyata keçirilib, mühüm nəticələr əldə olunub. Şübhəsiz ki, çoxşaxəli islahatların reallaşdırılması davamlı xarakter daşıyır. Dərin iqtisadi və institusional islahatların davamı kimi hüquqi islahatların aparılması da bu kontekstdə mühüm əhəmiyyətə malikdir. Bu baxımdan, Azərbaycan Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanını xüsusi vurğulamaq lazımdır. Fərmanda ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması məqsədilə ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi, Konstitusiya və qanunlarda təsbit edilmiş ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən riayət edilməsi mühüm şərt kimi öz əksini tapıb. "Mediasiya haqqında"qanunun tətbiqi də hüquq sistemində mühüm əhəmiyyətli islahat kimi qiymətləndirilməlidir. Çünki bu vaxta qədər Azərbaycanda tətbiq edilməyən və mübahisələrin alternativ üsulla həllinə şərait yaradan yeni bir institut yaradılıb. Prezident İlham Əliyevin məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsi ilə bağlı fərmanı məhkəmələrdə şəffaflığın daha da artırılmasına gətirib çıxaracaq. Ümumiyyətlə, Konstitusiyanın 94-cü maddəsinin I hissəsi, 10-cu və 12-ci bəndlərinə uyğun olaraq, mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili nəzərdə tutuldu ki, hazırda "Mediasiya haqqında" qanunun tətbiq edilməsi ilə məhkəmə sistemində yeni mərhələ başlayacaq. Mediasiya Şurası əsas etibarilə iqtisadi, mülki və ailə mənşəli mübahisələri həll edəcək. Bu institutun məhkəmələrdən əsas fərqi isə mübahisələri iddiaçı tərəflərin qarşılıqlı razılığı əsasında məhkəməyə çatmadan həll etməsi olacaq. Bunun üçün mediatorlar fəaliyyət göstərəcək. Beləliklə, bu addım həm şəffaflığın təmin olunmasına, həm də ictimai etimad mühitinin dərinləşməsinə səbəb olacaq. Mediasiya İnstitutu yeni ifadə forması olsa da, bu şuranın funksiyası, əslində, hər birimizə tanışdır. Çünki nüfuzlu vasitəçilərin köməkliyi ilə mübahisələrin həlli mentalitetimizə uyğundur.

***- Martın 29-da Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasında Vyanada keçirilən görüşün Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar prosesi kontekstində əhəmiyyəti nədən ibarətdir?***

- Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasında Vyanada keçirilən görüş bir sıra mühüm aspektləri ilə diqqətçəkən oldu. Hər şeydən əvvəl, işğalçı Ermənistanın "format" siyasi manipulyasiyasına son qoyuldu, təqribən birillik fasilədən sonra məsələnin mahiyyəti üzrə danışıqların aparılmasına start verildi. Hər iki tərəf danışıqları konstruktiv adlandırdı və danışıqların davam etdirilməsi ilə bağlı xarici siyasət idarələrinə tapşırıq verildi. Bu, faktiki olaraq ənənəvi "3+2" formatında danışıqların bərpası kimi də qiymətləndirilə bilər. Önə çıxan məsələlərdən biri də həmsədrlər tərəfindən verilən bəyanatda sülh prosesinin irəli aparılması istiqamətində mühitin yaradılması, münaqişənin həlli üçün konkret və nəticəyönümlü addımların atılmasının vacibliyinin vurğulanması oldu. Görüşdən dərhal sonra BMT Baş katibinin xüsusi bəyanatla çıxış edərək problemin həll edilməsi ilə bağlı aparılan danışıqları dəstəklədiyini bildirməsi də, əslində, sülh danışıqlarına BMT səviyyəsində dəstək kimi qiymətləndirilə bilər.

Vyana görüşündən sonra Prezident İlham Əliyev bir daha Azərbaycanın danışıqlar masasındakı mövqeyini açıq şəkildə bəyan edərək bildirdi ki, bizim üçün birinci yerdə beynəlxalq səviyyədə tanınmış Azərbaycan ərazilərinin beynəlxalq hüquq, Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsi çərçivəsində işğaldan azad edilməsi məsələsi durur. Bu, o deməkdir ki, Azərbaycan heç bir halda öz qəti və haqlı mövqeyindən geri çəkilməyəcək. İşğalçı Ermənistan bunu bilməlidir və əgər danışıqlara gəlirsə, bunun fərqində olaraq gəlməlidir.

Faktiki vəziyyət ondan ibarətdir ki, Paşinyan Azərbaycanın mövqeyini bilir və artıq daxili auditoriya üçün çıxış edəndə deyə bilməyəcək ki, danışıqların gündəmi yoxdur. Başqa bir yenilik isə ondan ibarətdir ki, danışıqlar prosesinin, həm də humanitar aksiyalarla dəstəklənməsi ilə bağlı tərəflər arasında fikir mübadiləsi aparılıb və bu da həmsədrlərin tez-tez bəyan etdikləri kimi, etimad mühitinin əldə olunmasına yardım məqsədi daşıyır. Nəticə etibarilə, Azərbaycan işğalçı Ermənistanı danışıqlar masasına qaytara bildi, öz mövqeyindən geri çəkilmədi, beynəlxalq dəstəyini daha da artırdı və problemin sülh yolu ilə həll olunması üçün Ermənistana növbəti şans verdi. Bu şansdan Yerevanın necə istifadə edəcəyini isə onun bundan sonra atacağı addımlarda görəcəyik.

***- Yeri gəlmişkən, üçüncü ildönümünü qeyd etdiyimiz aprel döyüşləri müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biri olmaqla yanaşı, Ermənistanın yaratdığı mifi tamamilə darmadağın etdi...***

- Aprel döyüşləri təkcə son Qarabağ savaşının deyil, bütövlükdə Ermənistanın Azərbaycan torpaqlarının işğalına başladığı dövrdən, yəni 1918-ci ildən bu günədək ciddi tarixi dönüş nöqtəsidir. Bu hadisə, əslində, Azərbaycanın növbəti qələbələrinin başlanğıcıdır. Çünki Azərbaycan Ordusu nəzərdə tutduğumuz son 100 illik tarixdə yalnız 1993-cü ilin dekabrında Horadiz əməliyyatı zamanı nailiyyətlər əldə edib. Ondan sonrakı mərhələdə bu miqyasda qalibiyyətlə nəticələnən döyüşlər olmayıb.

Hazırkı mürəkkəb hərbi-siyasi vəziyyətdə Azərbaycan Ordusunun bu cür qələbələr əldə etməsi, heç şübhəsiz, bundan sonrakı mərhələdə Dağlıq Qarabağ münaqişəsinin həllində yeni şərtlər formalaşdırdı, yeni şərait yaratdı. Eyni zamanda, bu prosesdə hərbi-psixoloji üstünlük Azərbaycan tərəfinə keçmiş oldu. Ötən üç il ərzində hər bir Azərbaycan vətəndaşı bu hadisənin Ermənistan cəmiyyətində nə qədər pessimist əhval-ruhiyyə, nə qədər mənəvi, hərbi, psixoloji məğlubiyyət yaratdığının şahidi oldu. Ermənistanda 2018-ci ildən başlayaraq bu günə qədər davam edən daxili "zəlzələ" də məhz Aprel döyüşlərinin yaratdığı yeni reallığın nəticəsidir. Göründüyü kimi, bu, təkcə hərbi məsələ deyil, eyni zamanda, ciddi mənəvi-psixoloji və siyasi məsələdir. Ancaq məsələ təkcə bununla da məhdudlaşmır. Biz bilirik ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həm də beynəlxalq tərəfləri var. Bilirik ki, bu münaqişədə iştirak edən təkcə işğalçı Ermənistan deyil, Azərbaycan torpaqlarını işğal edən Ermənistanın tərəfində olan, onu gizli və ya açıq şəkildə himayə edən imperialist güc mərkəzləridir. Aprel döyüşlərindən sonra onlar da lazımi mesajlar aldılar və bir daha başa düşdülər ki, status-kvonun saxlanılması cəhdləri bu problemin həllində heç də yaxşı perspektivlər vəd etmir. Bəzi imperialist mərkəzlər onu da anladılar ki, belə davam edərsə, bir gün Azərbaycan artıq nə BMT-nin mandatı ilə fəaliyyət göstərən ATƏT-in Minsk qrupuna, nə də onun həmsədrlərinə ehtiyacı olmadan özü bu problemi həll edə bilər. Bütün bunlar 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusunun əldə etdiyi qələbədən sonra mümkün oldu.

Başqa mühüm bir məsələ də var ki, Aprel döyüşləri mühüm bir taktiki qələbə kimi özündən əvvəl iki il sonra yeni bir qələbənin - Günnüt qələbəsinin əsasını qoydu. Azərbaycan Ordusu Naxçıvan ərazisində 90-cı illərin əvvəllərində işğalçı Ermənistan tərəfindən nəzarətə götürülən torpaqlarımızı qaytarmaqla strateji yüksəkliklərdə möhkəmləndi və Yerevan-Qafan strateji yolunu nəzarətə götürdü. Artıq ermənilər bilir ki, bənzər hadisə yenə təkrarlana bilər və Azərbaycanın torpaqları işğaldan tam azad edilənə qədər bu, davam də bilər. Aprel döyüşlərinin yaratdığı başqa bir reallıq isə azad edilmiş torpaqlarımıza "Böyük qayıdış"ın başlanmasının əsasının qoyulması oldu. Bu hadisə problemin həllində yeni mərhələ yaratmaqla status-kvonun legitimləşdirilməsi cəhdlərinin mümkün olmadığını hər kəsə göstərdi.

***- Hikmət müəllim, aprelin 5-də Bakının Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksi istifadəyə verildi. Bu, heç şübhəsiz, Azərbaycan dövlətinin qaçqın və məcburi köçkünlərin problemlərinin həlli ilə bağlı həyata keçirdiyi kompleks tədbirlər sırasında mühüm yer tutur. Bununla bağlı nə söyləmək olar?***

- Dövlət başçısı ilə vətəndaşlar arasında inam, etimad və etibar olduqda cəmiyyət, eyni zamanda, dövlət də inkişaf edir. Biz bunu Azərbaycanın nümunəsində bariz şəkildə müşahidə edirik. Bunun başlıca səbəbi, heç şübhəsiz ki, Prezident tərəfindən həyata keçirilən siyasət və onun xalq tərəfindən dəstəklənməsidir. Hakimiyyət-xalq vəhdəti buradan ortaya çıxır. Bunu zəruri edən şərtlər çoxdur və həmin şərtlər Azərbaycanda təmin olunub. Bunun hüquqi, sosial, iqtisadi əsasları var. Ancaq bu planda önə çıxan, ilk növbədə, Azərbaycan vətəndaşının rifahıdır, onun həyat keyfiyyətinin yaxşılaşdırılmasıdır ki, bu siyasət daim Azərbaycan Prezidenti tərəfindən həyata keçirilib və bu gün də davam etdirilir.

Bakının Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksinin aprelin 5-də istifadəyə verilməsi dövlətin qaçqın və məcburi köçkünlərə yüksək diqqət və qayğısının daha bir nümunəsidir. Təkcə 2018-ci ildə 5903 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülüb. Ümumilikdə, bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli üçün indiyədək 7,1 milyard manat vəsait xərclənib. Açılan yeni iş yerləri nəticəsində məcburi köçkünlər arasında yoxsulluq həddi son 15 ildə 75 faizdən 12 faizədək azalıb.

Bütövlükdə, reallaşdırılan kompleks xarakterli tədbirlər göstərir ki, Azərbaycan dövləti həmişə vətəndaşlarının yanındadır. Ümumiyyətlə, ölkəmizdə həyata keçirilən dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının mənafeyi və rifahı dayanır. Xüsusi qayğıya ehtiyacı olan vətəndaşlara, o cümlədən qaçqın və məcburi köçkünlərə dövlət tərəfindən yüksək diqqət və qayğı göstərilməsi də bu baxımdan xüsusi əhəmiyyətə malikdir.

# Sabunçuda Prezident İlham Əliyevin birillik fəaliyyətinə həsr olunmuş tədbir keçirilib

***Sabunçu rayonunda yerləşən Bakı Gənclər Evində Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatının Sabunçu rayon icra hakimiyyəti ilə birgə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin birillik fəaliyyəti ilə bağlı tədbir keçirilib.***



Tədbiri giriş sözü ilə açan Sabunçu RİH-in başçısı Adil Vəliyev bildirib ki, bu gün özlərini müxalifət adlandıran bəzi qüvvələr Azərbaycan xalqının iradəsi qarşısında tab gətirə bilmədiklərini dərk edərək, hər vəchlə suyu bulandırmağa, sosial şəbəkələrdə yalanlar və böhtanlar yaymağa çalışırlar: “Lakin Azərbaycan xalqı hər zaman öz iradəsinin səsinə səs verərək, bütün seçkilərdə Prezident İlham Əliyevi dəstəkləyir. Bu, bilavasitə Ulu Öndər Heydər Əliyev ideologiyasının inkişafına və bu inkişafın Prezident İlham Əliyev tərəfindən uğurlu davamına göstərilən xalq dəstəyidir. Azərbaycan tərəqqi yolundadır və Cənab İlham Əliyevin, nəinki bir illik fəaliyyəti, bütövlükdə, Respublikaya rəhbərliyini əks etdirən bütün dövrlər davamlı inkişaf və uğurlar dövrü kimi müasir tariximizə həkk olunub”.



YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva da, öz növbəsində, bildirib ki, bir il öncə, Azərbaycan xalqı prezident seçkilərində fəallıq göstərərək, Cənab İlham Əliyevə səs verməklə, Azərbaycanın daha güclü inkişafına səs verib: “Hər bir azərbaycanlı gənci, qadını, yaşlısı yaxşı bilir ki, bugünkü inkişaf asan yolla əldə olunmayıb. Çünki bu inkişaf üçün çox zəhmətlər çəkilib, böyük işlər həyata keçirilib. Bu, bilavasitə Prezident İlham Əliyevin Azərbaycan xalqına, ölkəmizə olan sonsuz məhəbbətindən irəli gələn gerçəklikdir. Əlbəttə ki, Sabunçu rayonunun da sakinləri seçkilərdə kifayət qədər fəallıq göstərdilər və bu gün, bir daha əmin oldular ki, Azərbaycan inkişaf və tərəqqi yolunu davam etdirir, qarşıda isə ondan da nəhəng qələbə və zəfərlər bizləri gözləyir”.

Tədbirdə millət vəkilləri Eldar Quliyev, Dilarə Cəbrayılova, eləcə də, Ali Neft Məktəbinin rektoru, YAP Siyasi Şurasının üzvü Elmar Qasımov, Ekologiya və Təbii Sərvətlər nazirinin müavini, YAP Siyasi Şurasının üzvü Firdovsi Əliyev və digərləri çıxış edərək, Prezident İlham Əliyevin dövlət başçısının birillik fəaliyyətinə toxunaraq, qeyd etdilər ki, son bir ildə görülən işlər, həyata keçirilən beynəlxalq miqyaslı layihələr, əslində, bir neçə ilin uğurlu işlərini özündə birləşdirir və analoqu olmayan bu siyasət, məhz ölkə başçısı tərəfindən reallaşdırılır.

***Rövşən NURƏDDİNOĞLU***

# Naira Zoqrabyanın yalanı ifşa olundu

***“Mənim addımım” fraksiyasının deputatı Marina Karapetyan ittihamla çıxış edib. SİA Ermənistana məxsus aysor.am saytının məlumatına istinadən xəbər verir ki, M.Karapetyan parlamentdə çıxışı zamanı “Çiçəklənən Ermənistan” fraksiyasının deputatı Naira Zoqrabyanı yalan danışmaqda ittiham edib. Xatırladaq ki, Marina Karapetyan ilə Nairə Zohrabyan arasında konflikt 5 aprel tarixində, Milli Məclisin tribunasından Lilit Martirosyanın insan haqları mövzusunda çıxışından sonra yaranıb. Yayılan informasiyalar görə, L.Martirosyan parlamentə “Mənim addımım” fraksiyasının deputatı Marina Karapetyanın dəvəti ilə gəlmişdi və Naira Zohrabyan onun çıxışını parlament dinləmələrinin gündəminin pozulması və ümumilikdə Ermənistanın Milli məclisinə hörmətsizlik hesab edir.***



“Mən öyrəndim ki, parlamentin dəhlizində Nairə Zohrabyan parlamentin dinləmələrində “gizli şəkildə planlaşdırılan çıxışlar” mövzusunda mənim adımı hallandırıb. Mən isə heç kimin çıxışını təşkil etməmişəm. Əslində, Naira Zoqrabyanın yalanları bununla bitmir. Xanım Zoqrabyan, komissiya məhkəmə gündəliyi üçün aydın məsələlər qoyub dedikdə də yalan danışır. Daimi kamissiyanın 11 mart tarixli, insan hüquqlarının müdafiəsi və ictimai məsələlər barəsində iclasında hündəlik təsdiq olundu, hansı ki, heç bir mövzu yox idi. Gündəliyin mövzusu Milli Məclisin saytında elan olundu, amma dinləmələrə bir neçə gün qalmış gündəlik saytdan silinib yığışdırıldı. Dinləmələrə iki gün qalmış kamissiyanın üzvlərinə yeni gündəlik göndərildi, hansı ki, mövzular kamissya üzvləri tərəfindən təsdiqlənməmişdi.”

O, həmçinin xəbər verir ki, yeni gündəliyin içtimai təşkilatlara göndərilməsini üçün daimi kamissyanın sekretarlığına da müraciət edib. Amma bu müraciətə baxan, əməl edən olmayıb. “Xanım Zohrabyan, qeyri-hökumət təşkilatlarının yalnız çıxışları gündəyə aid olduğu halda qeydiyyatdan keçməyə çağırılır, dedikdə yalan deyir. Bu yalandır, çünki qeyd etdiyim kimi, qeydiyyat zamanı, mövzular sadəcə yox idi. İctimai qurumların nümayəndələri ilk dəfə bu gündəliyi yalnız məclisin yığıncaq salonunda gördülər. Mən parlamentdə keçirilən dinləmələrdə yalnız öz çıxışımı planlaşdırmışdım. Xanım Zöhrabyandan mənə yekun söz verməsini xahiş etdim, amma o, böhranlı vəziyyətlərlə bacara bilmədiyindən və özünü itirdiyindən mənə söz vermədi”, - Karapetyan qeyd edib.

***İnam Hacıyev***



# Azərbaycanda vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin prioritetlərindəndir

*Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl və düşünülmüş sosial-iqtisadi siyasət nəticəsində, ölkəmizin davamlı inkişafı təmin edilib*

***Azərbaycanda insan amili, onun rifahı, məşğulluğun təmin olunması, yoxsulluğun və işsizliyin aradan qaldırılması, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin prioritetlərindən biridir. Son 15 ildə pensiya və təqaüdlərin artırılması, vətəndaşların mənzil şəraitinin yaxşılaşdırılması, təhsil və səhiyyə imkanlarının genişləndirilməsi əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların diqqət və qayğı ilə əhatə olunması, qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli istiqamətində mühüm addımlar atılıb. Bütün bunlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən müsbət qiymətləndirilir.***

Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl və düşünülmüş sosial-iqtisadi siyasət nəticəsində, ölkəmizin davamlı inkişafı təmin edilib, ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisi ciddi şəkildə artıb. İqtisadiyyatın modernləşdirilməsi, qeyri-neft sektorunun inkişafı ilə bağlı irimiqyaslı layihələrin reallaşdırılması nəticəsində, yeni iş yerləri açılıb, əhalinin həyat səviyyəsi yüksəlib, məşğulluğu artıb və yoxsulluğun səviyyəsi aşağı düşüb. Ölkəmizin ardıcıl və dinamik inkişafı, rəqabətədavamlı iqtisadiyyatı təmin edən islahatlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən ciddi təhlil edilib və Azərbaycan “Yüksək insan inkişafı” ölkələri kateqoriyasına daxil olub.

Respublikamızda həyata keçirilən sosial siyasət insanların sosial xidmətlərə olan ehtiyaclarının ödənilməsinə yönəldilməklə təhsilin, elmin, səhiyyənin, mədəniyyətin, digər sosial-mədəni tədbirlərin inkişaf etdirilməsi və əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi məqsədlərinə dövlət büdcəsindən hər il böyük məbləğdə vəsait ayrılır. Bu baxımdan, 2019-cu ilin dövlət büdcəsinin layihəsində büdcənin sosialyönümlülüyü təmin edilib və bütün sosial proqramların icrası ilə bağlı qarşıya qoyulan vəzifələr öz həllini tapıb.

Prezident İlham Əliyevin “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” 2019-cu il 25 fevral tarixli Sərəncamı bariz nümunəsidir. Sərəncama əsasən, yaşa görə sosial müavinətin məbləğinin 130 manata, sosial müavinətin məbləğinin I qrup əlilliyə görə 150 manata, II qrup əlilliyə görə 130 manata, III qrup əlilliyə görə isə 110 manata, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara sosial müavinətin məbləğinin 150 manata çatdırılması, ailə başçısını itirməyə görə sosial müavinətin məbləğinin 80 manata çatdırılması, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına (himayəçilərinə) sosial müavinətin məbləğinin 100 manata çatdırılması, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına sosial müavinətin məbləğinin 100 manata çatdırılması nəzərdə tutlur. Sərəncama əsasən, beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləğinin hər uşaq üçün 55 manata, uşağın anadan olmasına görə sosial müavinətin məbləğinin 200 manata çatdırılması, dəfn üçün ödənilən sosial müavinətin məbləğinin 300 manata çatdırılması, I qrup əlillərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə, I qrup əlilliyi olan şəxslərə qulluq edənlərə və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edənlərə 50 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi, müharibə veteranlarına kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət, habelə, döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə, 80 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi, müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin I qrup əlilliyə görə 250 manata, II qrup əlilliyə görə 230 manata, III qrup əlilliyə görə 210 manata, əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə, I qrup əlilliyə görə sosial müavinət alanlara Azərbaycan Respublikası Prezidentinin təqaüdünün əmək pensiyası almaq hüququ olan I qrup əlillərə (gözdən əlillər istisna olmaqla) şamil olunması və məbləğinin 100 manata, 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və “Leninqradın müdafiəsinə görə” medalı, “Leninqrad mühasirəsində yaşayan” döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin 150 manata çatdırılması nəzərdə tutulur.

Sərəncam, ümumilikdə, 576,8 min nəfərə yönələn sosial müavinətlərin və Prezidentin aylıq təqaüdlərinin əhəmiyyətli dərəcədə artırılması, eləcə də, həmin təqaüdlərin əhatə dairəsinin daha da genişləndirilməsi məqsədinə xidmət edir. Sərəncama əsasən, edilən artımlar üçün cari ilin 9 ayı üçün, əlavə olaraq, 300 milyon manat, illik isə, əlavə olaraq, 400 milyon manat vəsait ayrılacaq.

***“Səs” Analitik Qrupu***

# Ermənistan qorxu və vahimə içindədir

***Artıq Ermənistanın hakim rejimi Azərbaycanın gücünü, qüdrətini və ordusunun yüksək hazırlığı qarşısında tab gətirə bilməyəcəyini etiraf etməyə başlayıb. Bu səbəbdən də, hərbi xuntadan ibarət olan Paşinyan rejimi Azərbaycanla sülhə hazır olduğunu bəyan edir. Ermənistanın müdafiə naziri bildirib ki, Azərbaycanla sülh danışıqlarını davam etdirməyə və bu istiqamətdə razılığa gəlməyə hazırdırlar. Söhbət etdiyimiz müsahiblərimiz Ermənistanın təşviş içində olduğunu və bu amilin işğalçı ölkənin Azərbaycanın gücü və qüdrəti qarşısında çəkinməsi ilə bağlı olduğunu bildirdilər.***

## Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu: "Müharibə ilə bağlı mesaj Ermənistanda çaşqınlıq və qorxu yaradıb"



- Ermənistan rəhbərliyi başa düşür ki, artıq Azərbaycan elə bir hərbi gücə malikdir ki, bu gücə meydan oxumaq intihara bərabər olardı. Bunu biz son GFP-nin yayımladığı (Global Firepower) siyahısında da gördük. Ordumuz öz hərbi göstəricilərinə görə, dünyanın ən güclü orduları sırasında 52-ci yerdə qərarlaşıb. Ermənistan isə 96-cı yerdədir. Azərbaycan qeyd-şərtsiz Cənubi Qafqaz regionunun lider dövlətidir. Məlum olduğu kimi, Ermənistanın müdafiə naziri David Tonoyan Vyana görüşlərindən sonra sərsəm bir açıqlama verməşdi. O, ölkəsinin baş naziri Vyanada sülh variantlarını müzakirə etdiyi bir vaxtda Nyu-Yorkda həyasızcasına yeni Azərbaycan ərazilərinin işğalından danışdı. Maraqlıdır ki, onun ağır nəticələrə səbəb ola biləcək bəyanatına Paşinyan dəstək verdi. Təbii ki, bütün bunlar Ermənistandakı hakimiyyətin daxili auditoriya üçün oynadığı teatr tamaşasından başqa bir şey deyildi. Ancaq Azərbaycan bütün bunlara səssiz qala bilməzdi və qalmadı da. Azərbaycan Prezidenti aprel hadisələrinin ildönümü ilə bağlı təmas xəttində əsgərlərlə görüş zamanı açıq şəkildə bəyan etdi ki, Azərbaycan Ordusu öz gücünü göstərməyə hazırdır. Bunun ardınca, aprel ayının 6-da, Moskvada Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov qeyd etdi ki, "Ermənistan ya mənimlə razılığa gəlməli, ya da müdafiə nazirimizlə danışmalı olacaq". Bu sərt bəyanatdan bir neçə saat sonra müdafiə naziri, general-polkovnik Zakir Həsənov orduya "döyüşə hazır ol" əmri verdi. Bütün bunlar, Tonoyan və Paşinyan başda olmaqla, bütün Ermənistan hökumət üzvlərində böyük bir çaşqınlıq və qorxu yaratdı. Ermənistan rəhbərliyi, bir daha başa düşdü ki, Azərbaycanla danışıqlardan yayınmaq nə qədər təhlükəli bir addım ola bilər. Ona görə də, Ermənistanın müdafiə naziri Tonoyan bu gün açıqlama verərək, bildirib ki, "Azərbaycanın müharibə hədələrinə qarşı sülhlə cavab verəcəyik və biz müharibə istəmirik". Bu açıqlama Tonoyan başda olmaqla, bütün Ermənistan hökumətinin geri addımı kimi qiymətləndirilməlidir. Çünki onlar da başa düşür ki, Azərbaycanın gücü qarşısında durmaq mümkün deyil. Lakin Tonoyan başda olmaqla, bütün Ermənistan ictimaiyyəti bilməlidir ki, Qarabağ azad edilmədən, heç bir sülh imkanı mövcud deyil. Sözün düzü, Dağlıq Qarabağ azad edilmədən münaqişənin həlli ilə bağlı heç bir razılıqdan söhbət gedə bilməz. Sadəcə, Vyana görüşlərində bir daha tərəflər "3+2 format"ında danışıqların davam etdirilməsi barədə razılığa gəlibər. Bu da Azərbaycanın diplomatik səylərinin nəticəsi olaraq baş tutub. İlkin razılıq, yalnız o halda əldə edilə bilər ki, işğalçı ordu Azərbaycan ərazilərindən çıxacaq. Yalnız bu variantda Azərbaycan tərəfi ilkin razılıq üçün qarşı tərəflə uzlaşa bilər. Həmsədrlərin münaqişənin həlli ilə bağlı ilkin razılığın əldə olunması istiqamətində fikirlərinə gəlincə, deyə bilərik ki, artıq 30 ilə yaxındır ki, bu tipli bəyanatları dinləyirik. Bu 30 il bir daha göstərmişdir ki, ATƏT münaqişənin həlli üçün heç bir real imkana sahib deyil. ATƏT-in, o cümlədən, BMT-nin qəbul etdiyi qətnamələr Ermənistan üçün heç bir əhəmiyyət kəsb etmir. Hətta Ermənistan müdafiə nazirinin yeni ərazilərin işğalı ilə bağlı açıqlamasına ATƏT heç bir rəsmi münasibət bildirmədi. Həmçinin, qeyd etmək istəyirəm ki, Paşinyan "biz əraziləri sülhə dəyişməyəcəyik" fikri əsasında Qarabağ siyasəti yürüdür. Bu siyasətə ATƏT-in mandatına, onun diplomatik missiyalarına ziddir və ATƏT prinsiplərinin birbaşa inkarıdır.

## Siyasi şərhçi Azər Həsrət: "Ermənistan üçün hər keçən gün daha da çətinləşir "

- Ermənistan hakimiyyətinin ayrı-ayrı təmsilçilərinin bir-birinə zidd açıqlamalar verməsi, davranışlarını təəccüblü və çaşqın şəkildə sərgiləmələri ondan xəbər verir ki, bu ölkədə vahid strateji xətt yoxdur. Yəni onların, daha doğrusu, Ermənistana rəhbərlik edənlərin, sadəcə olaraq, nəinki uzaq, hətta yaxın gələcəklə bağlı konkret planları və proqramları yoxdur. Ona görə də, bəzən baxırıq ki, baş nazir bir fikir səsləndirir, müdafiə naziri başqa bir fikir səsləndirir və ya Ermənistan ictimai rəyinin önündə gedənlər tamam fərqli mövqe səsləndirir. Bütün bu məsələlər, ondan xəbər verir ki, bu adamlar yaxşı anlayırlar ki, Azərbaycan qarşısında duruş gətirmək, Ermənistan üçün hər keçən gün daha da çətinləşir. Təbiidir ki, bu çətinliyin altından çıxmaq, eyni zamanda, daxili ictimai rəyi sakitləşdirmək üçün gedişlər etməyə cəhd göstərirlər, lakin bu gedişləri də əlavə problemlərə səbəb olur.



İkinci bir tərəfdən, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bəyanatına gəldikdə, təbiidir ki, ilkin razılıq deyəndə, nəzərdə tutulan məsələ sülh danışıqlarının davam etdirilməsi ilə bağlıdır. Yəni Azərbaycan həmişə sülh danışıqlarına sadiq olduğunu əməldə göstərib, Ermənistandan fərqli olaraq və münaqişənin, bütövlükdə, danışıqlar masası arxasında həllində maraqlı olduğunu əməldə təsdiq edib. Paşinyanla Azərbaycan Prezidentinin Vyana görüşündə də, əslinə qalanda, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin müsbət dəyərləndirdiyi məqam bundan ibarətdir. Yəni məsələ qoyuldu ki, daha konstruktiv, məqsədyönlü bir şəkildə bu danışıqlar davam etdirilsin. Yəni təbiidir ki, tərəflərin belə iradəsinin ortaya çıxması həmsədrləri də razı sala bilərdi və ona görə də, onlar ilkin razılıqla bağlı bəyanat verdilər. Əlbəttə, ayrıntılar haqqında, hələ ki, nə Ermənistan, nə Azərbaycan, nə də həmsədrlər heç bir bilgi verməyə tələsmirlər. Çünki belə bilgilər vaxtından əvvəl verilərsə, işin ziyanına olar. Ona görə də, hələlik, biz də gözləmə mövqeyi tutmalıyıq. Azərbaycan Prezidenti lazım olan anda Azərbaycan xalqını məlumatlandıracaq.

***GÜLYANƏ***

## Paşinyanın arvadı: "Ermənistanın minlərlə əsgəri Qarabağda həyatını itirib"



Ermənistanin baş naziri Nikol Paşinyanın arvadı Anna Akopyanın ABŞ-a səfəri zamanı "Amerikanın səsi" radiosunun erməni dili redaksiyasına müsahibəsi zamanı "Ermənistanın minlərlə əsgəri heç nəyə görə Dağlıq Qarabağda həyatlarını itirib" fikirləri erməni ictimaiyyətini çaşqınlığa salıb. SİA xəbər verir ki, artıq Ermənistan ictimaiyyəti ilə yanaşı, Qarabağın erməniləri iddia etməyə başlayıblar ki, ölkədə münaqişə ətrafında aparılan danışıqlardan nəticə gözləməyən hakimiyyət geri çəkilməyə hazırlaşır və bu vasitəylə bənzər bəyanatların yaxın günlərdə digər iqtidaryönlü şəxslər tərəfindən də səslənməsi mümkünlüyü mövcuddur.

Qeyd edək ki, Akopyan ABŞ-da səfərdədir və pul dilənmək üçün "kampaniya" aparır. Daha dəqiq desək, artıq ABŞ-ın Boston ştatındakı erməni icması onun başçılıq etdiyi "Təbəssüm şəhəri" Xeyriyyə Fonduna 150 min dollar ianə verib.

***Rövşən NURƏDDİNOĞLU***

## "Ermənistan Azərbaycana qarşı duruş gətirə bilməz"



"Aprel döyüşləri sübut etdi ki, Azərbaycan vətəndaşı vətənpərvərdir. Azərbaycan vətəndaşı və ordusu böyük müdafiə qabiliyyətinə və gücə malikdir. Nə qədər ki, Azərbaycan torpaqları işğal altındadır, biz hər zaman döyüşə hazır olmalıyıq və bunu da ermənilər açıq şəkildə bilməlidirlər və bilirlər". Bunu SİA-ya politoloq Zaur Məmmədov deyib.

Politoloqun sözlərinə görə, Azərbaycanda heç kəs Ermənistanın işğalçılıq siyasəti ilə barışmır və barışmayacaq: "Haqq və ədalət bizim tərəfimizdədir. Biz erməni terrorizmindən əziyyət çəkən ölkəyik. Azərbaycan mərhələli şəkildə, qarşısına qoyduğu strategiya əsasında bütün istiqamətlərdə erməni tərəfini üstələyir. Təbii ki, bu üstünlük sonda işğalda olan torpaqların azad edilməsi ilə nəticələnməlidir. Son zamanlar erməni tərəfinin həyəcan və təşviş içində olması və bunu gizlədə bilməmələri təsadüfi deyil. Bu gün Ermənistan Azərbaycana qarşı duruş gətirə bilməz. Təbii ki, bütün münaqişələrlə yanaşı bu məsələyə də geosiyasi kontekstdən baxılmalıdır. Elə ATƏT-in Minsk Qrupunda təmsil olunan böyük güclər də başa düşməlidirlər ki, Azərbaycan bölgədə sabitliyin, barışın, mehriban qonşuluq siyasətinin tərəfdarıdır. Azərbaycan səmimi tərəfdaşdır və təbii ki, Bakının tələbi ərazi bütövlüyünün bərpası, erməni işğalına son qoyulmasıdır".

## ABŞ-ın daxili təhlükəsizlik naziri Kirsten Nilsen istefa verib



ABŞ Prezidenti Donald Tramp ABŞ-ın daxili təhlükəsizlik naziri Kirsten Nilsenin istefa verdiyini bəyan edib. O, 2017-ci il oktyabrın 11-dən bu vəzifəni yerinə yetirdi. Nilsen Tramp administrasiyasına Ağ ev aparatının sabiq rəhbəri Con Kellinin təqdimatı ilə gəlmişdi.

AZƏRTAC xəbər verir ki, Tramp Twitter vasitəsilə bildirib ki, ABŞ-ın daxili təhlükəsizlik vəzifəsini Sərhəd-Gömrük Xidmətinin rəisi Kevin Makalinan icra edəcək. Amerika KİV-ləri xəbər verirlər ki, son aylar Nilsen Prezident Trampın qeyri-leqal immiqrantlara qarşı "sıfır dözümlülük" siyasətinin tam yerinə yetirilməsi üzrə ümidlərini doğrultmayıb. O, immiqrantlara münasibətdə heç bir radikal addım atmayıb və hesab edib ki, bu, Amerika cəmiyyətində gərginliyi artıra bilər. Tramp isə ondan daha sərt və effektiv addımlar atmağı tələb edib.

# Rezidenturaya qəbul imtahanının nəticələri açıqlanıb



***Dövlət İmtahan Mərkəzi (DİM) rezidenturaya qəbul olmaq üçün keçirilmiş baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanının nəticələrini elan edib. Mərkəzdən SİA-ya verilən məlumata görə, hər bir namizəd DİM-in internet saytına daxil olaraq imtahan nəticələri və cavab kartının qrafik təsviri ilə tanış ola bilər. Namizədlər imtahan nəticələri haqqında məlumatı, həmçinin mobil operatorlar (Azercell, Bakcell, Nar) vasitəsilə "iş nömrəsi"ni 7727 nömrəsinə göndərməklə də öyrənə bilərlər.***

Nəticələrə əsasən, imtahanda iştirakı nəzərdə tutulan 930 namizəddən 21 nəfəri imtahana gəlməyib. 450 namizəd birinci mərhələnin müsbiqə şərtini (40 və daha yüksək bal) ödəyərək ikinci mərhələyə buraxılıb. Ən yüksək nəticə, toplanılması mümkün olan 100 baldan 89 bal olmuşdur. Qeyd edək ki, rezidenturaya qəbul olmaq üçün ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı iyulun 14-də keçiriləcək.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

9 aprel 2019-cu il

# “Şahdağ” Turizm Mərkəzi dünyanın nüfuzlu istirahət mərkəzləri ilə rəqabət apara biləcək məkandır

***Son illər həyata keçirilən sosial-iqtisadi yönümlü layihələr, dövlət proqramları, siyasi sabitlik ölkəmizin inkişafını daha da sürətləndirir. Azərbaycan Prezidenti İlham Əliyevin məlum sərəncamları ilə reallaşan dövlət proqramları turizmin daha da inkişafına səbəb olub.***

Ölkədə yüzlərlə turizm şirkətinin fəaliyyəti, turizm marşrutlarının yaradılması, beşulduzlu otellərin istifadəyə verilməsi, eləcə də, peşəkar kadların hazırlanmasına diqqətin artırılması və s. Azərbaycanı turizm ölkəsi kimi tanıdıb. Ümumilikdə, Azərbaycanda turizmin inkişafı ilə bağlı böyük addımlar atılıb. Xüsusilə, bölgələrdə bir neçə beşulduzlu otel istifadəyə verilib. Yeni turizm mərkəzləri açılıb. Sevindirici haldır ki, bu reallıqların və turizm sahəsinə ayrılan diqqətin nəticəsində, son illərdə Azərbaycana gələn turistlərin sayında nəzərəçarpan artım müşahidə olunur. Ölkəmizin müxtəlif ərazilərində dünya standartlarına uyğun gələn otellər, əyləncə mərkəzləri və istirahət zonaları yaradılıb. Müxtəlif görkəmdə və xidmətdə olan otellərin inşası buraya gələn axının yüksək səviyyədə təminatına əsas verir. Azərbaycanın Xaçmaz, Qəbələ, İsmayıllı, Şamaxı, Quba və Masallı kimi istirahət zonalarında istirahət edənlərin sayının artması Azərbaycan turizminə olan diqqətin göstəricisidir.

Ölkəmizdə yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması, mövsümlük anlayışını aradan qaldırmaqla, davamlı turizmə nail olmağa şərait yaradıb. Azərbaycan, isti iqlim qurşağında yerləşməsinə baxmayaraq, o nadir ölkələrdəndir ki, ən yüksək dünya standartlarına cavab verən nəhəng qış turizm infrastrukturları və kompleksləri yaradır. Belə ki, turizm sahəsində məqsədli şəkildə həyata keçirilən layihələr qış turizminin inkişafına da yeni yollar açdı. “Şahdağ” Qış-Yay Turizm Kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara gətirib çıxardı. Azərbaycan tarixində ilk dağ-xizək kurortu olan “Şahdağ” Qış-Yay Turizm Kompleksinə daxil olan “Qaya” və “Zirvə” mehmanxanalarının açılışı turistlərin istirahətinə geniş imkanlar açdı. Qədim buzlaqlar, dərin dərələr, heyrətamiz dağ gölləri, bitki və heyvan aləminin ekoloji xəzinəsi buradadır. İl boyu idman və istirahətə çox əlverişli iqlimi olan Şahdağın -20°C soyuq qışı +20°C isti yay axşamları ilə əvəzlənir. Bura, regionun ən böyük xizək kurortunun yerləşdiyi, dünyanın ən böyük milli parklarından biri üçün müqayisəolunmaz bir məkandır.

Qış-yay turizm kompleksi qapılarını qonaqların üzünə açdığı elə ilk günlərdən turistlərin böyük marağına səbəb olub. Qış turizminin inkişaf etdirilməsi ilə bağlı atılan









növbəti addımlardan olan Qəbələdəki “Tufan” Dağ-Xizək Yay-Qış İstirahət Kompleksi oldu. Bu iri kompleksin inşası göstərdi ki, Azərbaycanda turizmin inkişafına





və bu sahədə infrastrukturun yaradılmasına xüsusi diqqət göstərilir. “Tufan” Dağ-Xizək Yay-Qış İstirahət Kompleksində nəhəng infrastruktur yaradılıb. Ərazidə insanların rahat istirahəti üçün hər cür şəraitə malik infrastrukturun, o cümlədən, mehmanxana, ofislər, uşaqlar üçün istirahət guşəsi və digər müvafiq obyektlərin yaradılması istiqamətində işlər davam etdirilir.

“Şahdağ” Qış-Yay Turizm, “Tufan” Dağ-Xizək Qış-Yay İstirahət komplekslərində görülən işlər Azərbaycanın turizmin inkişafı sahəsində əldə olunan uğurların göstəricisidir. Bu günlərdə ABŞ-ın tanınmış 77WABC radiosunun aparıcısı Con Batçelor və nüfuzlu “The Washington Times” qəzetinin müxbiri Monika Krouli “Şahdağ” Turizm Mərkəzi QSC-nin İdarə Heyətinin sədri Rodderix Mark Lefflerdən müsahibə alıblar.

Müsahibə zamanı “Şahdağ” Turizm Mərkəzində turistlərin istirahəti üçün bütün infrastrukturun yaradıldığı, buranın dünyanın nüfuzlu istirahət mərkəzləri ilə rəqabət apara biləcəyi qeyd olunub. Vurğulanıb ki, yerli turistlərlə yanaşı, Qazaxıstan, Rusiya və Avropanın bir sıra ölkələrindən gələn turistlər də “Şahdağ” Turizm Mərkəzində dincəlirlər.

2019-cu ildə mərkəzə rekord sayda xarici turistin gəldiyi diqqətə çatdırılıb. Bildirilib ki, hazırda Çin və Yaponiyadan olan turistlərin mərkəzə gələrək, burada dincəlmələri üçün müvafiq işlər görülür.

O da vurğulanıb ki, “Şahdağ” Turizm Mərkəzi Bakıdan cəmi 250 kilometr məsafədə yerləşir. Turistlərin istirahəti üçün burada əlverişli hava şəraitinin olduğu, üç SPA mərkəzinin fəaliyyət göstərdiyi bildirilib. Diqqətə çatdırılıb ki, turistlərin idmanın 21 müxtəlif növü ilə məşğul olmaları üçün mərkəzdə geniş imkanlar yaradılıb. Burada yaradılan şərait, bir daha təsdiqləyir ki, artıq turistlər ilin bütün fəsillərində Azərbaycana - Qəbələyə və Qusara səfər edə bilərlər. Yay mövsümündə minlərlə qonağı qarşılayan bu məkanlar qışda da turistlərin ən gözəl istirahət mərkəzidir.

Bütün bunlar göstərir ki, Azərbaycanın turizm potensialı artıq ölkəmizin inkişafına, xalqımızın rifah halının yaxşılaşmasına təsirini göstərir. Azərbaycanda yaradılan imkanlar dünya səviyyəsindədir.

**ZÜMRÜD**

# NATO-nun 70 illiyi: üzvlər arasında ziddiyyətlərin yeni mərhələsi

***Amerikanın paytaxtında Şimali Atlantika Alyansının 70 illik yubileyi təntənə ilə qeyd edilib. Yubiley tədbirləri hay-küylü bəyanatların fonunda baş tutub. Üzv dövlətlər arasında fikir ayrılığı çərçivəsində bir sıra hadisələr baş verib ki, ekspertlər onların əsasında analiz aparır və proqnozlar verirlər. O cümlədən ABŞ-Türkiyə münasibətlərinin dinamikasına işıq salmağa çalışırlar. Ancaq burada bir başlıca məqam nədənsə unudulur. Məsələ ondan ibarətdir ki, Amerika, ümumiyyətlə, NATO üzvləri ilə ziddiyyətə girib. Fransa və Almaniyanın müstəqil Avropa ordusu yaratmaq ideyasını irəli sürməsi məhz bu aspektlə bağlıdır. Bunun fonunda da Amerikanın Türkiyəyə qarşı əsassız iddialarının morfologiyasını anlamaq olar. Digər tərəfdən, burada Rusiya faktorunun rolunu unutmaq olmaz. Bütün bu məqamların işığında Alyansın 70 illik yubileyi kontekstində böyük dövlətlər arasında geosiyasi münasibətlərin bəzi mühüm aspektləri üzərində geniş dayanmağa ehtiyac görürük.***




## Hamıya hücum: Vaşinqton Şimali Atlantika Alyansını parçalayır?

Vaşinqtonda NATO-nun yaradılmasının 70-ci ildönümü ilə bağlı üzv dövlətlərin xarici işlər nazirlərinin toplantısı keçirilib. NATO dünyanın ən nüfuzlu hərbi bloku sayılır. Orada ABŞ ən güclü orduya malikdir. Sonrakı yerdə Türkiyədir. Lakin indi NATO-nun məhz bu iki üzvü arasında müəyyən anlaşılmazlıq mövcuddur. Bu məsələ o dərəcədə qabarıb ki, təşkilatın 70 illik yubileyi ərəfəsində ciddi surətdə söz atışmaları özünü göstərib. Bu məqamdan bir sıra ölkələrin siyasi və ekspert dairələri istifadə etməyə çalışaraq, iki dövlət arasında münasibətləri daha da gərginləşdirməyə cəhd edirlər. Əslində, problemin mahiyyəti ciddi faktorlarla bağlıdır.

Donald Tramp prezident seçildikdən sonra ABŞ-ın bütövlükdə hər bir NATO üzvünə etirazı meydana çıxdı. Amerika prezidenti açıq bəyan etdi ki, təşkilatın üzvləri Vaşinqtonun pulunu xərcləyir, lakin lazımi məqamda ona dəstək vermirlər. Bu səbəbdən NATO üzvləri təşkilata daha çox pul ayırmalıdırlar. Ancaq ABŞ-ın bu tələbinə onun ənənəvi müttəfiqləri olan Avropa dövlətləri ehtiyatla yanaşdılar. Bu cür yanaşma indi də müşahidə edilir. Fransa və Almaniya kimi böyük dövlətlər büdcədən NATO üçün 2 faiz ayırmağa elə də isti yanaşmırlar.

Bundan əlavə, Fransa və Almaniya Avropanın Amerikadan asılı olmayan öz ordusunu yaratmaq ideyasını irəli sürüblər. Bu məsələni daha çox Fransa prezidenti Emmanuel Makron gündəmə gətirir. Həmin səbəbdən də Fransada etiraz hərəkatı başlayıb. Prezident Donald Tramp açıq deyir ki, fransızlar onu daha çox sevirlər. Almaniyanın kansleri Angela Merkel də Vaşinqtonun hərbi çətirindən qurtulmağın tərəfdarıdır. Həmin səbəbdən Berlin-Vaşinqton xəttində soyuq küləklər əsməkdədir.

Bütün bunlar onu göstərir ki, Şimali Atlantika Alyansı daxilində fikir ayrılıqları az deyil və onu ancaq ABŞ-Türkiyə münasibətləri ilə məhdudlaşdırmaq olmaz. Bütövlükdə təşkilatın struktur və funksional ziddiyyətləri dərinləşməkdədir. Bu isə təbii olaraq üzv dövlətlər arasında etimadı zəiflədir. Onlar təhlükəsizliklərini təmin etmək üçün müstəqil hərəkət etməyə məcburdurlar. O da məntiqidir ki, belə gedişatda fikir ayrılıqları daha da dərinləşə bilər. Vaşinqton-Ankara xəttində müşahidə edilən gərginliyə bu prizmadan baxdıqda, maraqlı qənaətlər əldə etmək olur.

ABŞ Türkiyənin Rusiyadan “S-400” zenit-raket sistemləri almasını etirazla qarşılayıb. Vaşinqtonun fikrincə, bu sistemlər vasitəsilə Rusiya NATO-nun hərbi potensialının informasiya sahəsinə nüfuz edib, sirləri öyrənə bilər. Ancaq türk mütəxəssislər bunun əsassız olduğunu deyirlər. Çünki Yunanıstan çoxdandır ki, “S-400”lərdən istifadə edir, ancaq onların vasitəsilə NATO-ya hansısa zərərin dəydiyindən danışılmır. Bəs Türkiyəyə qarşı niyə belə mövqe tutulur?

Bunun müxtəlif səbəbləri qeyd olunur. Başlıca məqam kimi Türkiyənin müstəqil xarici siyasət yeritməsi göstərilir. Doğrudan da, Türkiyə artıq dünya miqyasında təsiri olan müstəqil mövqe nümayiş etdirir. O cümlədən Vaşinqtonun direktivlərini yerinə yetirməkdən imtina edir. Bu cür mövqe Ankaranın həm Vaşinqtonla, həm də Brüsellə əlaqələrinə mənfi təsir göstərir. Buna baxmayaraq, Ankara seçdiyi xəttdən imtina etmir. “S-400”lərlə bağlı situasiya isə daha konkret faktorlarla əlaqəlidir.

## Türkiyənin “günahı”: müstəqil və güclü olmaq istəyi

Məsələ ondan ibarətdir ki, Yaxın Şərqdə terror dalğası güclənəndə Türkiyə NATO-dan hava sahəsini qorumasını istədi. Öncə bir neçə “Patriot” sistemini Türkiyə ərazisində yerləşdirdilər. Ancaq bu sistemləri yalnız ABŞ və Avropa hərbçiləri işlədə bilirlər. Onlar türklərin “Patriot”ları öyrənməsini təmin etmədilər. Üstəlik, Suriyadan Türkiyəyə terrorçular raket atanda və rus qırıcıları Türkiyə sərhədi ətrafında tüğyan edəndə, NATO-dan heç bir tərpəniş olmadı. Onda Ankara anladı ki, təhlükəsizliyinin havadan təmini böyük risk altındadır. Türkiyə öncə Rusiyaya məxsus qırıcını vurdu və sübut etdi ki, onun hava sərhədini pozanlar cəzasız qalmır. Nəticədə, iki dövlət arasında ciddi narazılıq yarandı. Lakin türklər bu ziddiyyəti də həll etdilər.

Digər tərəfdən, Ankara NATO-dan hava hücumundan müdafiə sistemləri ilə təmin olunmağı tələb edirdi. Bu dəfə də təşkilat sükut etdi. Bu halda Ankara digər böyük dövlətlərə üz tutmağa məcbur oldu. Çinlə bir müqavilə imzalandı. Moskva bunu duyub, Ankara ilə işləri nizama salmağa tələsdi. Nəticədə, Rusiya ilə Türkiyə “S-400” məsələsində razılaşdı. Türkiyə Çinlə imzalanan müqavilədən imtina etdi.

İki ölkə bütün sferalarda əlaqələri daha da genişləndirərək, strateji tərəfdaşlıq səviyyəsinə yüksəltdilər. Hazırda Rusiya və Türkiyə sürətlə əməkdaşlığı inkişaf etdirirlər. Bu məqamda Vaşinqton tələb edir ki, Türkiyə “S-400”ləri almaqdan imtina etsin. Faktiki olaraq bununla Rusiya-Türkiyə münasibətlərində çat yaratmağa çalışırlar.

NATO-nun 70 illik yubileyi ərəfəsində də Amerikanın yüksək vəzifəli şəxsləri Türkiyəni hədələyən bəyanatlar verdilər. Onlar dedilər ki, belə getsə, Türkiyəyə qarşı sanksiyalar tətbiq edəcək, o cümlədən “F-35” qırıcılarını verməyəcəklər. Buna baxmayaraq, Ankara öz sözünü deyir. Amerikaya mesaj göndərildi ki, ya terrorçuları, ya da Türkiyəni seçsin. Vaşinqton terrorçuları seçməklə NATO-da uçurum yaratdı, təhlükəsizliyi riskə atdı. Bu səbəbdən də seçim etməli olan Vaşinqtondur. “S-400”lərə gəldikdə isə, Ankara sazişdən imtina etməyəcək. Eyni zamanda, “Patriot”ları da ala bilər.

Belə çıxır ki, Şimali Atlantika blokunun 70 illiyinin keçirildiyi bir vaxtda bu kimi problemlərin özünü göstərməsinin başlıca səbəbi Vaşinqtonun tutduğu mövqedir. Amerika özünün geosiyasi maraqları üçün istənilən müttəfiqini çətin vəziyyətə salmağa hazırdır. Almaniya, Fransa, Türkiyə bunu öz üzərlərində birbaşa hiss etdilər. Daha çox Türkiyə bu cür yanaşmadan əziyyət çəkir. Yaxın Şərqdə baş verən hadisələr fonunda bu məsələ daha aktual görünür. Hətta NATO-nun baş katibi Yens Stoltenberq etiraf edir ki, Yaxın Şərqdəki terrordan təşkilat üzvlərindən ən çox Türkiyə ziyan görüb. Çünki bu ölkə həmin regiondadır və sərhədləri boyu silahlı toqquşmalar baş verir.

Bundan başqa, məhz Amerika Türkiyəyə düşmən olan terror qruplarına yardım edir. Əsas olaraq PYD/YPG-yə hərtərəfli yardımlar edir. Düşündürücüdür ki, Vaşinqton bu mövqeyindən əl çəkmir. İndi də Yaxın Şərqdəki terror qruplarına Amerikadan silah və maliyyə yardımı davam edir. Belə bir şəraitdə Türkiyə nə etməlidir?

Əlbəttə, təhlükəsizliyini təmin etmənin qayğısına qalmalıdır. Bu yolda onu NATO-dan çıxarmaq istəsələr belə, geriyə dönüş olmamalıdır. Çünki söhbət, ümumiyyətlə, türk dövlətinin mövcudluğundan gedir. Bu baxımdan NATO-nun yubileyi ərəfəsi Vaşinqton boş yerə özünü yorub.

Ekspertlər bütün bunların fonunda Rusiya-Türkiyə münasibətlərinin daha da inkişaf edəcəyini proqnozlaşdırırlar. Doğrudur, Rusiyada bəzi ekspertlər yaranmış vəziyyəti Rusiyanın diqtəsi kimi qələmə verməyə çalışırlar. Onlar guya Moskvanın Ankaraya ultimatum verərək, özünə yaxınlaşdırdığından dəm vururlar. Ancaq reallıq ondan ibarətdir ki, Türkiyə kifayət qədər böyük dövlətdir və onunla ultimatum dilində heç kimsə danışa bilməz. Belə olsaydı, indi Amerika ofsaydda qalmazdı.

Rusiya ilə Türkiyənin əməkdaşlığı hər iki tərəfə faydalıdır. Bütövlükdə Avrasiya geosiyasi məkanı üçün sərfəlidir. Çünki bu iki böyük dövlət geniş bir ərazidə təhlükəsizliyin, əməkdaşlığın və qarşılıqlı faydalı əlaqələrin yeni səviyyəyə yüksəlməsinə ciddi təkan verə bilərlər. Bu aspektdə hazırkı proseslərə nəzər salanda, Vaşinqton və Brüsselin daha çox narahat olması nəticəsini çıxara bilərik. Çünki Türkiyə NATO-dan çıxsa, daha müstəqil və daha güclü ola bilər. NATO üzvü olmaq da Ankaraya ziyan vermir. Yeganə şərt - Türkiyənin inkişafının qarşısında durmamaqdır. Vaşinqton bu istiqamətdə mövqeyini dəyişsə, Türkiyənin timsalında Yaxın Şərqin lider dövləti ilə dostluğu davam etdirə biləcək. Amerikanın başqa seçimi yoxdur!

**Newtimes.az**

# İlqar Məmmədovdan Əli Kərimliyə “vicdansız” damğası

*AXCP və “Milli Şura” cütlüyü “REAL”-la müharibə astanasında*

***AXCP və “Milli Şura”nı idarə edən Əli Kərimlinin sosial şəbəkədəki söyüş qrupları “REAL” partiyasının sədri İlqar Məmmədova qarşı ardıcıl kampaniyalarını indi də davam etdirməkdədirlər. Belə ki, son günlər istər İ.Məmmədov, istərsə də onun müavinləri radikalizm və mitinqlər yolu ilə hər hansı bir siyasi uğurun əldə edilə bilinməyəcəyini etiraf edir, o cümlədən, hakimiyyətin apardığı islahatlar proqramını müsbət qiymətləndirirlər.***

Əlbəttə ki, iqtidarın atdığı uğurlu və xalq tərəfindən dəstəklənən addımlarını qəbul etməyənlərin başında dayanan Ə.Kərimli bu uğurlara öz təbirincə kölgə salmağa cəhdlər göstərir, islahatları dəstəkləyən müxalif mövqeli insanları isə dərhal “xəyanətkar” adlandırır. Halbuki AXCP sədrinin istər müxalifətə, istərsə də bütövlükdə, Azərbaycan dövlətinə və xalqına qarşı törətdiyi xəyanətlər bu gün də hər kəsin xatirindədir.

### İlqar Məmmədovdan Əli Kərimliyə: “8 aydır mənə qarşı vicdansız təbliğat apardınız ki...”

“REAL” partiyasının sədri İ.Məmmədovun sosial şəbəkədə yazdığı status bu məsələni daha da qızışdırıb. Xatırladaq ki, “reaalçı”ların sədri siyasi mübarizənin seçkidən keçdiyini etiraf edib. “Deyirdim sizə: gedək seçkiyə, görək, insanları səslərin müdafiəsinə səfərbər edə bilirikmi?” statusunda qeyd edən İ.Məmmədov bu vasitə ilə ənənəvi müxalifətin xalq tərəfindən dəstək ala bilməyəcəyinə eyham vurub və düşərgəni səmərəli fəaliyyət göstərməyə dəvət edib. O, xüsusilə, AXCP-”Milli Şura” cütlüyünü, habelə, müsavatçıları, mitinq keçirmək iddiasını kənara qoymağa və hər mitinqlərində “inqilab edəcəyik” kimi utopik xəyallara dalmamağa səsləyib: “...Dediniz ki, yox e, biz meydanlardan birbaşa hakimiyyətə gələcəyik. 8 aydır mənə qarşı vicdansız təbliğat apardınız ki, “biz inqilab eləmək istəyirik, İlqar Məmmədov imkan vermir”. Yaxşı, “inqilab-inqilab” deyirdiniz: 4 dəfə mitinqə qoyulan qadağa həmin o inqilabınızı haçana qədər ertələdi?”

### <u>Əli Kərimlidən</u> <u>İlqar Məmmədova:</u> “Həvəsi varsa, özünü aldatsın...”

İronik sualının ardınca, “REAL” partiyasının sədri ənənəvi düşərgəni normal əməkdaşlığa dəvət edib. “Amma qapılarımız yenə də açıqdır. Seçki məsələsində əməkdaşlığa hələ də tam hazıram və bir daha dəvət edirəm” deyən müxalifətçi partiya sədri, bunun əvəzində, sosial şəbəkədə qarşı tərəfin söyüşlərini, təhqir və istehzalarını oxumalı olub. Bütün bunların başlanğıcını isə, məhz Ə.Kərimli qoyub. O, İ.Məmmədovun özünü aldatdığını deyib və növbəti dəfə xalqın adından danışıb. “Heç kim özünü aldatmasın. Daha doğrusu, həvəsi varsa, özünü aldatsın, ancaq bizi və xalqı aldatmağa çalışmasın” deyən AXCP sədri bununla söyüş qrupuna “başlayın” eyhamını vurub.

### Nə mitinq, nə də seçki onların bu ümidlərini doğrultmayıb, bundan sonra da doğrulda bilməyəcək

O da əbəs deyil ki, Ə.Kərimlinin Fransada yaşayan müavini Natiq Ədilov starta başlayıb və hər zaman olduğu kimi, köhnə iddiada bulunub. Yəni İ.Məmmədova “hakimiyyətə işləyirsən” ittihamını irəli sürüb. “İlqar Məmmədov həbsdə olanda, bəzi qrupların onun ətrafında qurduğu kampaniya kifayət qədər effektli olmuşdu. Xeyli adamın İlqar Məmmədovdan ciddi gözləntiləri var idi” deyən N.Ədilov Erkin Qədirli və Natiq Cəfərlini də İ.Məmmədovla birlikdə müxalifətə xəyanət etdiklərini bildirib. Söz yox ki, qarşı tərəflər də, öz növbələrində, eyni ittihamı bu və ya digər şəkildə səsləndiriblər. Beləliklə, bu məsələ böyüyərək, hətta şişərək çərçivədən çıxıb və fakt budur ki, radikal düşərgədə kəskin və amansız müharibəyə start verilib. Bu müharibədən kimlərin necə çıxacağını isə növbəti seçkilər göstərəcək. Yəni bəri başdan, belə bir qənaətə gəlmək mümkündür ki, radikal və dağıdıcı müxalifətin bir hissəsinin ümidləri mitinqlərə, digərininki isə seçkilərə qalıb. Amma nə mitinq, nə də seçki onların bu ümidlərini doğrultmayıb, bundan sonra da doğrulda bilməyəcək.

***Rövşən RƏSULOV***

# Parçalanmış “AXH”-nin “razborkası” çayxanalarda davam edəcək

*Bu fakt bir daha göstərdi ki, müxalifətin birləşmək, ümumi mövqedən çıxa bilmək şansları tamamilə itirilib*



AMDP sədri İsgəndər Həmidovun “Azərbaycan Xalq Hərəkatı”nı inhisarına almaq cəhdi puça çıxdıqdan sonra, bu qurum iki yerə parçalandı. Deməkolar ki, bir neçə ay ümumi fəaliyyət göstərən “AXH” sonuncu iclasında baş verən dava-dalaşın ardınca parçalandı. Bu fakt isə, bir daha göstərdi ki, müxalifətin birləşmək, ümumi mövqedən çıxa bilmək şansları tamamilə itirilib.

Onu da qeyd edək ki, “AXH” hazırda iki qanada ayrılıb və onlardan birinə”Ağ partiya”nın sədri Tural Abbaslı dönəm sədrliyi edir. Bu mənadan, nəzərə alarsaq ki, tərəflər arasındakı dava onlar arasındakı bağlantıları tamamilə kəsib, bu zaman həm də belə bir nəticəyə gəlmək mümkündür ki, oradakı vəziyyət nəzarətdən çıxıb.

Baxmayaraq ki, İ.Həmidov jurnalistlərə açıqlamasında qarşı tərəfin nümayəndələri ilə görüş keçirmək barədə razılığa gəlindiyini deyib, hələlik, qarşı tərəf AMDP sədrinə heç bir müsbət cavab verməyib, görünür, bundan sonra da verməyəcək.

### Bu, bir daha köhnə və naftalin qoxusu verən müxalifətin hələ də küçə, çayxana tipli siyasət yürütmək şakərlərinin itmədiyinin göstəricisidir

Daha bir diqqətçəkici məqam görüşün baş tutacağı halda, yerinin müəyyənləşdirilməsidir. İ.Həmidov bununla bağlı deyib ki, görüş baş tutarsa, AMEA-nın çayxanasında qarşılaşacaqlar. Bu, bir daha köhnə və naftalin qoxusu verən müxalifətin hələ də küçə, çayxana tipli siyasət yürütmək şakərlərinin itmədiyinin göstəricisidir. Siyasi polemikalarını çayxanalarda, hətta “yüzxanalarda” aparan bu kimi dırnaqarası müxalifət “liderlərindən”, başqa heç nəyi gözləməyə də dəyməz. “Görüşdə bizim tərəfdən mən, Valeh Mirzəyev, digər tərəfdən isə, Rəhim Qazıyev və onların müəyyənləşdirəcəyi digər iki nəfər iştirak edəcək”, deyə AMDP sədri bildirib.

### KXCP və “GAP” qərargahlarında parçalanmış iclas?

Yeri gəlmişkən, “AXH”-nin parçalanmış iclası iki ünvanda keçirilib. Belə ki, biri Mirmahmud Mirəlioğlunun sədri olduğu KXCP-də, digəri isə Ağasəf Şakiroğlunun sədri olduğu və Rəsul Quliyev tərəfindən maliyyələşdirilən “GAP”-da. “Hərəkat”ın “GAP”-dakı iclasına idarə heyətinin 12, KXCP-dəkinə isə 9 nəfər qatılıb.

Onu da qeyd edək ki, AXH-də təmsil olunan partiyaların tam əksəriyyəti KXCP qərargahına toplaşıb. İclaslarda, bir həftə öncə, hərəkatın dönəm sədri T.Abbaslı ilə AMDP sədri İsgəndər Həmidov arasında yaşanan qarşıdurma müzakirə edilir.

### Tərəflərin tələbləri dəyişməyib... Köhnə müxalifətçilər belə, “AXH”-də baş verən məlum hadisələri sirk tamaşası adlandırırlar

Maraqlı məqam isə budur ki, tərəflər ayrı-ayrılıqda toplantılar keçirsələr belə, daha öncəki qalmaqallı iclasdakı tələblər qüvvəsində qalmaqdadır. Belə ki, İ.Həmidovun iştirak etdiyi “GAP”-dakı iclasda, bir həftə əvvəl olduğu kimi, bu dəfə də dönəm sədri T.Abbaslının “AXH”-nin idarə heyətinin üzvlüyündən, birmənalı olaraq, çıxarılması tələbləri səslənir. Parçalanmış “AXH”-nin “razborkası” isə çayxanalarda davam edəcək. Çünki KXCP-də də T.Abbaslının sədrliyi ilə keçirilən iclasa qatılan sabiq müdafiə naziri Rəhim Qazıyev İ.Həmidovla telefon zəngi ilə əlaqə saxlayıb, neytral zonada görüş təklif edib. Bu mənada, görüşün çayxanada keçiriləcəyi ilə bağlı qərar ətrafda onlara qarşı istehza hisslərini oyadıb. Hətta ənənəvi müxalifətdə təmsil olunan köhnə müxalifətçilər belə, “AXH”-də baş verən məlum hadisələri sirk tamaşası adlandırırlar.

***Rövşən RƏSULOV***

# Bakıda ərəb turistin gəmidə itirdiyi çanta tapıldı

***Daxili İşlər Nazirliyinin Nəqliyyatda Baş Polis İdarəsinin Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşları ölkəmizdə səfərdə olan ərəb turistin itən çantasını qısa zamanda taparaq sahibinə qaytarıb. Su Nəqliyyatında Polis İdarəsindən SİA-ya verilən məlumata görə, aprelin 7-də, saat 21:25 radələrində Su Nəqliyyatında Polis İdarəsinə Birləşmiş Ərəb Əmirlikləri vətəndaşı, Azərbaycana turist kimi gələn Aisha Hussain Ali Baqir Alzarooni tərəfindən zəng daxil olub.***




Həmin şəxs müraciətində Dənizkənarı Milli sParkın ərazisində “Şəfəq” gəzinti gəmisində olan zaman çantasının itdiyini bildirib. Aisha Hussain çantada şəxsi sənədlərinin, pulunun və digər lazımı ləvazimatlarının olduğunu deyib. Məlumat İdarə rəisinə məruzə olunub və qısa zamanda verilən göstərişə əsasən əməliyyat qrupu hadisə yerinə göndərib. Su Nəqliyyatında Polis İdarəsi əməkdaşlarının səyi nəticəsində turistin çantası saat 01:00 radələrində tapılaraq sahibinə qaytarılıb.

# Sumqayıt sakini dəm qazından ölüb



Sumqayıtın Hacı Zeynalabdin qəsəbəsində dəm qazından ölüm hadisəsi baş verib. AZƏRTAC xəbər verir ki, 2003-cü il təvəllüdlü Həsənova Ceyranxanım Ehtiram qızı yaşadığı evdə dəm qazından boğularaq ölüb. Sumqayıt Şəhər Polis İdarəsində məlumatı təsdiqləyərək faktla bağlı araşdırma aparıldığı bildirilib.

# Gəncədə adam bıçaqlamaqda şübhəli bilinən şəxs saxlanılıb



Gəncədə adam bıçaqlamaqda şübhəli bilinən şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə regional qrupundan AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, aprelin 6-da axşam saatlarında Gəncə şəhər sakini Elnur Hüseynovun qarın nahiyəsinin daxilinə keçən kəsilmiş-deşilmiş yarası ilə şəhər Təcili Tibbi Yardım Xəstəxanasına gətirilməsi barədə Nizami Rayon Polis İdarəsinə məlumat daxil olub.

Xəstə dərhal əməliyyat olunub. Polis əməkdaşlarının “isti izlər”lə keçirdikləri təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri nəticəsində Gəncə şəhər sakini, yetkinlik yaşına çatmayan E.İsmayılov şübhəli şəxs qismində saxlanılıb. O, araşdırma zamanı törətdiyi əməli etiraf edərək, E.Hüseynova aralarında yaranmış mübahisə zəminində bıçaqla xəsarət yetirdiyini bildirib. Faktla bağlı araşdırmalar aparılır.

# Beynəlxalq qadın hüquqlarının inkişaf xüsusiyyətləri

***"Gender mainstreaming" haqqında məruzənin müəlliflərinin fikrincə, bərabərlik bərabər vəziyyəti, müstəqilliyi, məsuliyyəti, habelə, qadın və kişilərin, ictimai və özəl hayatın bütün sahələrində, hər şeyi əhatə edən iştirakını nəzərdə tutur. Hüquqca bərabərliyin heç də icbari olaraq faktiki bərabərliyə aparmadığını etiraf edən mütəxəssislər bunu qadın və kişilərin həyat şərtlərindəki fərqliliklər nöqteyi-nəzərindən müzakirə edir. Bu zaman, "onlar qeyd edirlər ki, problem fərqlərin mövcudluğunda deyil, onların ayrı-seçkiliyə aparmalı olmadığındadır".***

Sevinc Abbasova yazır: "Avropa Şurası Nazirlər Komitəsinin 2003-cü ildə qəbul etdiyi "Siyasətdə və dövlət əhəmiyyətli qərarların qəbul olunmasında qadın və kişilərin balanslaşdırılmış iştirakı" adlı 3 saylı Tövsiyə və izahat memorandumu bir çox ölkələrdə müşahidə olunan formal gender bərabərliyi ilə reallıq arasında olan böyük fərqin aradan qaldırılmasına yönəlmişdir. Avropa Şurasının Nazirlər Komitəsi belə hesab edir ki, həqiqi bərabərliyə nail olmaq yolunda ən ciddi maneələrdən biri cinslər arasında sosial rolların bölünməsi haqqında olan davamlı və ənənəvi təsəvvürlərdir. Bu təsəvvürlər, ənənəvi olaraq, kişilərin fəaliyyət sahəsi sayılan mühüm siyasi və ictimai qərarların qəbul edilməsi prosesində daba çox kök atmışdır. Məhz buna görə də, siyasətdə və dövlət əhəmiyyətli qərarların verilməsində qadın və kişilərin balanslaşdırılmış iştirakına nail olmaq gender hüquq bərabərliyinin əldə olunması üçün çox önəmlidir. Ümumilikdə, gender hüquq bərabərliyinin, qadınlar və kişilərin balanslaşdırılmış iştirakının insan hüquqlarının, cəmiyyətin demokratik inkişafının və həyatın keyfiyyətinin yaxşılaşdırılmasının ayrılmaz bir hissəsi olduğuna əsaslanaraq, Avropa Şurasının Nazirlər Komitəsinə üzv ölkələrə bu cür balanslaşdırılmış nümayəndəliyin əldə olunmasına kömək göstərmək vəzifəsini boyunlarına götürməyi tövsiyə etmişdir. Tövsiyə siyasətdə və dövlət əhəmiyyətli qərarların qəbul edilmə prosesində qadınlar və kişilərin balanslaşdırılmış iştirakı üçün minimal dəhliz kimi, hər cinsdən 40 faizlik təmsilolunma şərtini müəyyən edir (Tövsiyənin məqsədlərinə uyğun olaraq, qadın və kişilərin balanslaşdırılmış iştirakı o deməkdir ki, siyasi və ya dövlət həyatında qərar qəbul edən orqanın tərkibində hər bir cinsi təmsil edənlərin sayı 40%-dən aşağı olmamalıdır). Ümumilikdə, tövsiyə Avropa Şurasına üzv ölkələrin nümayəndələri üçün, 8 tapşırıq irəli sürmüşdür ki, bunların da həlli qərarların qəbuledilmə prosesində qadınlar və kişilərin iştirakının daha çox balanslaşdırılması yolunda mühüm rol oynayacaqdır".

BMT-nın Baş Məclisinin 2000-ci il iyunun 5-dən 10-na kimi keçirilmiş "Qadınlar 2000-ci ildə: XX əsrdə kişilər və qadınlar arasında bərabərlik, inkişaf və sülh" adlı xüsusi sessiyası gender problemlərinə həsr olunmuşdu. Bu sessiya bir növ Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının həyata keçirilməsi üzrə sonrakı tədbirləri müəyyənləşdirməli idi. Sessiyada qəbul edilmiş sənədlərdə Pekin Platformasının 12 strategiyasının gerçəkləşməsi qarşısında duran maneələr yetərincə açıqlanmış və ilk növbədə, qadınların üzləşdiyi sosial problemlərin həllinin (yoxsulluqla mübarizə, qadınların təhsil və təlimi, qadınların sağlamlığı və s.), habelə, kişilər və qadınlar arasında faktiki bərabərsizliyin aradan qaldırılmasının prioritetliyi vurğulanmışdır.

S.Abbasovanın fikrincə, 2000-ci ilin sentyabrında BMT Minilliyin Sammitini keçirdi. Sammitin işində 147 dövlət və hökumət başçısı, ümumilikdə isə, dünyanın 189 ölkəsinin nümayəndəsi iştirak etmişdi. Yeri gəlmişkən, Ümummilli Lider Heydər Əliyev sammitin sentyabrın 7-də olmuş iclasında dərin konseptual məzmunlu çıxışında elə bir dünyanın qurulmasına çağırdı ki, "orada bütün dövlətlərin mənafeləri nəzərə alınacaq və həqiqətən, bərabərhüquqlu tərəfdaşlıq sahmana salınacaqdır". Sammitdə "Minilliyin Bəyannaməsi" qəbul edildi ki, orada yoxsulluğa, xəstəliklərlə, savadsızlığa, ətraf mühitin vəziyyətinin pisləşməsi və qadınlara qarşı ayrı-seçkiliklə mübarizəyə yönəlmiş bəşəriyyət qarşısında duran əsas inkişaf məqsədləri göstərilirdi. Bəyannamədə xülasə edilmiş səkkiz inkişaf məqsədindən üçüncüsü qadınların hüquq və imkanlarının genişləndirilməsini nəzərdə tutur və 2015-ci ilədək qadın və kişilər arasında təhsil səviyyəsində fərqin aradan qaldırılması və dövlət orqanlarında qadınların təmsilçiliyinin artırılması vəzifələrini müəyyənləşdirir.

Beləliklə, beynəlxalq qadın hüquqları institutunun, əsasən, XX əsrin II yarısında inkişafının icmalı bizə aşağıdakıları söyləməyə əsas verir. Gətirilən faktlardan da göründüyü kimi, qadın hüquqları, digər insan haqları ilə analogiya üzrə öz inkişafında üç mərhələ keçmişdir. Qadınlar ilkin olaraq şəxsi (nikah), mədəni və siyasi haqlar əldə etmiş, daha sonra ümumi rifah dövlət çərçivəsində sosial hüquqlarını təsbit etmişdilər. Ən nəhayət, onların özünəməxsus sosial kateqoriya olmaları səbəbi ilə spesifik ehtiyac və tələbatları ilə şərtlənmiş kollektiv hüquqları tanınmışdır. Qadın hüquqlarının beynəlxalq-hüquqi müstəvidə təsbiti özünün 1979-cu ildə qəbul edilmiş BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyasında özünün bitkin həllini tapdı. Qeyd etdiyimiz kimi, Konvensiyada hüquqi-imperativ formada beynəlxalq səviyyədə razılaşdırılmış və bütün qadınlara bütün sahələrdə tətbiq oluna biləcək qadın hüquqları haqqında prinsiplər şərh olunurdu.

S.Abbasova daha sonra yazır: "Beynəlxalq qadın hüquqlarının inkişafının bir başqa xüsusiyyəti də vurğunun de-jure səciyyəsindən de-facto səciyyəsi üzərinə keçirilməsində əksini tapmışdı. 1985-ci ildə Nayrobi strategiyalarının qəbulu ilə bu meyil daha sistemli xarakter kəsb etmişdir.

Bu zaman qloballaşma prosesində mühüm faktora çevrilir. O, müxtəlif cəmiyyətlərdə cinslərarası münasibətlərə təsir göstərir. Bu baxımdan, gender problemini yalnız lokal aspektdə deyil, qlobal və lokal səviyyələrin qarşılıqlı təsir müstəvisində araşdırmaq aktuallıq kəsb edir. Digər tərəfdən isə, qloballaşma gedişində qadının ictimai mövqeyi haqqında təsəvvürlər dəyişikliyə məruz qalır. Bu, dünyanın müxtəlif mikrososiumları öz içinə alan topluluq kimi anlayışının formalaşması meyili ilə bərabər gedir. Məhz bu sosiumların (onlardan birinə sosial kateqoriya kimi qadınlar daxildir) bərabər hüquqlu və bərabər imkanlı qarşılıqlı münasibətlərindən, bəlli mənada, bəşəriyyətin tərəqqisi asılıdır.

Azərbaycan Respublikası hökuməti tərəfindən BMT-nin Qadınlara qarşı ayrı-seçkilyin bütün formalarının ləğv olunması üzrə Komitəsinə təqdim etdiyi mütəmadi hesabatlar təşkil edir. Ümumiyyətlə, Azərbaycan "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyaya uyğun olaraq, BMT-nin Komitəsinə 1997-ci ildən etibarən 5 hesabat təqdim etmişdir. Bu hesabatlar, başlıca olaraq, dövlət-qadın siyasətinin həyata keçirilməsində, Azərbaycan hökumətinin ölkədə gender bərabərliyinin real əsaslarının yaradılmasında əldə etdiyi müvəffəqiyyətləri fiksasiya etməklə yanaşı, dövlət orqanlarının cinslərarası münasibətlərini müasir zamanın gender standartlarına uyğun şəkildə tənzimlənməklə bağlı niyyətlərini aşkara çıxarır. Sözügedən sənədlərdə ictimai-siyasi, iqtisadi, sosial-mədəni sahələrdə qadınlarımızın tərəqqisi, onların qarşılaşdıqları problemlər və mövcud gender stereotipləri haqqında yetərincə faktlar ehtiva olunur."

Ölkəmizdə qadın sahibkarlığının öyrənilməsində Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinin, habelə, Qadınların gender bərabərliyi müdafiəsində "Azərbaycan qadını" jurnalını xüsusi qeyd etməliyik.

Bakı Biznes-Tədris Mərkəzinin Hesabatları da əhəmiyyətlidir. Bu hesabatlar dövlət səviyyəsində son illərdə qadınların sahibkarlıq fəaliyyətinin təşviqinə dair gördüyü tədbirlər haqqında xeyli faktiki material ehtiva edir.

Qadınların gender bərabərliyi müdafiəsində "Azərbaycan qadını" jurnalının rolunu xüsusi qeyd etməliyik. 1970-1980-cı illərdə respublikamızda qaqadınların tərəqqisinin və qadın hərəkatının canlı salnaməsi idi. Jurnal o dövrdə qadınlarla bağlı elə bir problem yox idi ki, onu müzakirə etməsin və diqqət mərkəzində saxlamasın. "Azərbaycan qadını" jurnalı, bəlli mənada, öz dövrünün fenomeni idi və onun fenomenə çevrilməsində, şübhəsiz ki, 1972-1996-cı illərdə jurnala rəhbərlik etmiş Xalidə xanım Hasilovanın misilsiz xidmətləri olmuşdu.

**Beləliklə, beynəlxalq qadın hüquqları institutunun, əsasən, XX əsrin II yarısında inkişafının icmalı bizə aşağıdakıları söyləməyə əsas verir. Gətirilən faktlardan da göründüyü kimi, qadın hüquqları, digər insan haqları ilə analogiya üzrə öz inkişafında üç mərhələ keçmişdir. Qadınlar ilkin olaraq şəxsi (nikah), mədəni və siyasi haqlar əldə etmiş, daha sonra ümumi rifah dövlət çərçivəsində sosial hüquqlarını təsbit etmişdilər. Ən nəhayət, onların özünəməxsus sosial kateqoriya olmaları səbəbi ilə spesifik ehtiyac və tələbatları ilə şərtlənmiş kollektiv hüquqları tanınmışdır**

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Yaz depressiyası və onun səbəbləri



Yaz depressiyası yazın lap əvvəlindən başlayır. Havaların isinməsi, günlərin uzanması, günəşin daha çox görünməsi insan bədənindəki bioritmlərin və hormonal balansların kəskin dəyişməsi yaz depressiyası yaradır. Yazda qan durulur, təzyiqin artması və bunun nəticəsində orqanizmdə oyanma baş verir, həmin dəyişikliklər isə sinir pozğunluqlarına, əsəbiliyə səbəb olur. Yazın əvvəllərində bəzi adamlarda həmin depressiv halla üzləşmək olar.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, psixologiya üzrə fəlsəfə doktoru Yeganə Əsgərovanın AZƏRTAC-a verdiyi məlumata görə, qışdan yenicə çıxan insanların birdən-birə az yatması, qış rejiminə öyrəşdiyi halda yenidən yaz rejiminə keçməsi onun əhvalına təsir edir: "Həmin insanlarda yarıyuxululuq əlamətləri müşahidə olunur, əhvali-ruhiyyə aşağı düşür. Xoşbəxtlik hormonu deyilən serotonin hormonunun azalması da depressiya yaranmasına səbəb olur. Geyimlərdə kontrastlı vəziyyəti qoruya bilməmək də bunun səbəblərindən biridir. Təbii ki, bu, vitamin çatışmazlığı, yəni avitaminoz dövrünə də təsadüf edir. Ona görə də immun sistemi zəifləyir, bu da öz növbəsində əhval-ruhiyyənin enməsinə aparıb çıxarır".

Psixoloqun dediyinə görə, yazda depressiyaya düşənlər günün daha çox hissəsini yatmaqla keçirmək istəyir. Üzücü hissləri çoxalır, əsəbilik baş qaldırır, iştaha dəyişkənlikləri olur, hətta bəzən iştahanın kəsilməsi də baş verə bilər: "Depressiya müxtəlif yaşlarda özünü müxtəlif cür göstərir: yeniyetmələrdə yaz depressiyası özünü daha qabarıq şəkildə büruzə verir. Onların orqanizmində həmin vaxt daha çox dəyişikliklər başlayır. Nisbətən yuxarı yaşlarda, məsələn, 50-55 yaşında olanlarda daha çox fizioloji problemlər hiss olunur. Sinir sistemi pozuntusu, aqressivlik həmin yaş dövründə olanlar üçün daha xarakterikdir".

Fəsil dəyişkənliyinə daha rahat uyğunlaşmaq üçün təmiz havada çox gəzmək, idmanla məşğul olmaq məsləhət görülür: "Yuxudan erkən durmaq, idmanla məşğul olmaq, açıq havada gəzmək, ətrafdakılarla, tanışlarla daha çox ünsiyyət qurmaq lazımdır. Günəşli havada olmaq, çiçəklərin ətrini hiss etmək ən yaxşı terapiya sayılır. Şopinq terapiya bu sahədə yaxşı vasitədir. Yuxu saatlarını da qaydaya salmaq lazımdır. Havadan aktiv şəkildə vitaminin alınması məsləhətdir. Əlvan rəngli geyimlərdən çox istifadə etmək də faydalıdır".

Bütün bunlarla yanaşı vaxtında qidalanmaq, yüngül yeməklərə üstünlük vermək, alkoqol tərkibi olmayan içkilərin çox qəbul edilməsi məsləhət görülür.

## Bakıda evdən 40 min manatlıq qızıl əşyalar oğurlanıb

Nizami RPİ-nin 25-ci Polis Şöbəsinə rayon ərazisindəki mənzillərin birindən naməlum şəraitdə 40.000 manat dəyərində qızıl-zinət əşyalarının oğurlanması barədə müraciət daxil olub. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən Trend-ə verilən məlumata görə, müraciətlə əlaqədar müvafiq araşdırmalar aparılıb.

Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən orada xadimə işləyən Bakı şəhər sakini S.Abdulova saxlanılıb. Araşdırma aparılır.

## ELAN

Bakı şəhəri 8 aprel 2019-cu il

"BTB LEASING" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarını Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov, ev 27 ünvanında yerləşən inzibati binasında 31 may 2019-cu il tarixində, saat 15:00-da keçiriləcək "BTB LEASING" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının növbəti ümumi yığıncağına dəvət edir. Aşağıdakı məsələlər ümumi yığıncağın gündəliyinə daxil edilmişdir:

1. Cəmiyyətin illik hesabatının, balansının, mənfəət və zərər hesablarının təsdiq olunması.
2. Cəmiyyətin maliyyə vəziyyətinin müzakirə edilməsi.

"BTB LEASING" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi

***

Azərbaycan Dövlət Dəniz Akademiyasının "Gəmi sürücülüyü" fakültəsinin II kurs tələbəsi Rəhimzadə Əli Qəmbər oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## İctimai nəqliyyat vasitələri F1 yarışı ərəfəsində intensiv fəaliyyət göstərəcək



"2019 Formula 1 Azərbaycan Qran Prisi ərəfəsində Bakının mərkəzi küçələrində nəqliyyatın fasiləsiz hərəkətini təmin etmək məqsədilə hazırlanan Nəqliyyatın İdarə Olunması Planına əsasən, 27-28 aprel tarixlərində trekin yaxınlığından keçən 65, 5 və 53 nömrəli avtobuslar, 26-27-28 aprel tarixlərində isə 28 May, Sahil və İçərişəhər metro stansiyaları səhər saat 06:00-dan gecə saat 02:00-dək xidmət göstərəcək. Digər metro stansiyaları normal iş rejimindən əlavə saatlarda yalnız çıxış üçün açıq olacaq". SİA-nın məlumatına görə, bunu jurnalistlərə açıqlamasında "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin (BŞH) marketinq və kommunikasiya departamentinin rəhbəri Nigar Arpadarai deyib.

O qeyd edib ki, trekə gəlmək üçün 65 nömrəli avtobusun xidmətindən yararlanmaq istəyən tamaşaçılar Azərbaycan prospektində Mərkəzi Univermağın yaxınlığında yerləşən dayanacaqda enərək bilet aldığı tribunaya qədər piyada hərəkət etməlidirlər. N. Arpadarainin sözlərinə görə, yarış ərəfəsində 65 nömrəli avtobus Ə.Cavad küçəsi, Azərbaycan prospekti, Füzuli meydanı, Z.Əhmədbəyov küçəsi, Tbilisi prospekti, 20 Yanvar küçəsi, A.Məhərrəmov küçəsi və Mir Cəlal küçəsində yerləşən dayanacaqlardan keçəcək və 5 dəqiqəlik intervalla hərəkət edəcək.

BŞH rəsmisi bildirib ki, trekə 5 nömrəli avtobusla gəlmək istəyən tamaşaçılar Rəşid Behbudov ilə Nizami küçələrinin kəsişməsində yerləşən dayanacaqda enərək bilet aldıqları tribunaya piyada yaxınlaşmalıdırlar: "Yarış ərəfəsində 5 nömrəli avtobus N.Nərimanov metro stansiyası, 28 May metro stansiyasının Salatın Əsgərova küçəsindəki çıxışı, 28 May metro stansiyasının Cəfər Cabbarlı küçəsindəki çıxışı, 28 May küçəsi (Səməd Vurğun bağı), Nizami küçəsi və R.Behbudov küçəsində (Rəşid Behbudov adına Mahnı Teatrının yanı) yerləşən dayanacaqlardan keçəcək və 3 dəqiqəlik intervalla hərəkət edəcək. Trekə 53 nömrəli avtobus vasitəsilə gəlmək istəyən bilet sahibləri Bakı İdman Sarayının qarşısında yerləşən dayanacaqda enərək bilet aldıqları tribunaya tərəf piyada getməlidirlər. Yarış ərəfəsində 53 nömrəli avtobus 20-ci sahə, Bakı Su İdmanı Sarayı, Milli Bayraq Meydanı, İnturist oteli ilə üzbəüz (Bulvar tərəf saat 17:00-a qədər) yerləşən dayanacaqlardan keçəcək və 6 dəqiqəlik intervalla hərəkət edəcək".

N.Arpadarai vurğulayıb ki, yarış həftəsi ərzində şəhər sakinlərinin maneəsiz hərəkətini təmin etmək üçün trek ərazisində yerləşən daimi yeraltı keçidlər günboyu açıq olacaq və həmçinin piyadalar trekin müəyyən yerlərində qurulacaq müvəqqəti yerüstü keçidlərdən də istifadə edə biləcəklər: "Müvəqqəti salınacaq yerüstü keçidlər Azərbaycan prospekti ilə İstiqlaliyyət küçəsinin və Neftçilər prospekti ilə Rəşid Behbudov küçəsinin, həmçinin Xaqani ilə Rəşid Behbudov və Azadlıq Prospekti ilə Xaqani küçəsinin kəsişmələrində yerləşəcək".

Qeyd edək ki, aprelin 24-dən 29-a qədər dənizkənarı bulvarın Dəniz vağzalından Azneft dairəsinədək olan hissəsinə giriş bağlı olacaq. Aprelin 25-i, saat 12:00-dan etibarən yarış günlərində yalnız 4 günlük bilet sahiblərinin bu zonaya giriş-çıxışına icazə veriləcək. Digər bilet sahibləri üçün həmin zona 26-27-28 aprel tarixlərində, saat 10:00-dan etibarən açıq olacaq. Şəhər sakinləri və qonaqlar yuxarıda qeyd olunan günlər ərzində Park Bulvar mərkəzindən istifadə edə biləcəklər.

## Maqnus Karlsen qaçqın məktəblilərlə şahmat sülh naminə oyunu keçirib



Şəmkirdə Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının beş məktəbli üzvü ilə şahmat üzrə dünya çempionu Maqnus Karlsen arasında şahmat sülh naminə oyunu keçirilib. SİA xəbər verir ki, yarışdan əvvəl məktəblilər Ümummilli lider Heydər Əliyevin Şəmkirdəki abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar. Sonra Heydər Əliyev Mərkəzində yarışa start verilib. Yarışdan sonra uşaqlar Karlsenə arzularını çatdırıb, onunla şəkil çəkdiriblər.

## Gənc cüdoçumuz Avropa kubokunda çempion olub




Xəbər verdiyimiz kimi, İtaliyanın Liqnano şəhərində gənclər arasında cüdo üzrə Avropa kuboku yarışı keçirilir. Azərbaycan Cüdo Federasiyasından SİA-ya verilən məlumata görə, beynəlxalq yarışda 35 ölkənin idmançıları ilə yanaşı, Azərbaycan cüdoçuları da mübarizə aparırlar. İlk gündə Azərbaycanın milli komandası aktivinə bir medal yazdırıb. 60 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Əhməd Yusifov Böyük Britaniya, Rumıniya, Rusiya və İtaliya təmsilçilərinə qalib gələrək finala çıxıb. Həlledici qarşılaşmada italyan rəqibi Alessandro Aramunu məğlub edən Azərbaycan cüdoçusu Avropa kubokunda 1-ci yeri tutub. 604 cüdoçunun mübarizə apardığı beynəlxalq yarış aprelin 7-də başa çatacaq.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500